# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycan kinosu: dünən var idi, bəs bu gün?..




6


SƏS
№ 136 (7304)
2 avqust 2025-ci il.
Qiymәti 60 qәpik


## Azərbaycan-Özbəkistan: əməkdaşlıqda yeni dövr



2

*Prezident İlham Əliyev: "Qardaş ölkələr, müttəfiqlər kimi inamla, layiqincə, çiyin-çiyinə addımlayırıq və irəliləməyə davam edəcəyik"*

# Ermənistanın dost və qaz problemi



*Niyə Solomon adaları təhlükəsizdir, amma Ermənistan yox?*

11

## Xanəndəlik məktəbində möhtəşəm abidəsini ucaldan sənətkar



4

## "Əsas şərt Azərbaycan və Ermənistan arasında qarşılıqlı etimadın bərpa olunmasıdır"



8

## TƏXRİBAT




7

## SOS: yanğınlar ekosistemi məhv edir!



15

## "Fransanın qətnaməsi sülh danışıqlarını çətinləşdirə bilər"



14

# Azərbaycan-Özbəkistan: əməkdaşlıqda yeni dövr



## *Prezident İlham Əliyev: "Qardaş ölkələr, müttəfiqlər kimi inamla, layiqincə, çiyin-çiyinə addımlayırıq və irəliləməyə davam edəcəyik"*

***Yeni reallıqlar yaradan Azərbaycan qarşısına qoyduğu hədəflərə çataraq, bölgənin aparıcı aktoru, Avropanın enerji təhlükəsizliyini təmin edən əsas ölkələrdən biridir. Ölkəmiz hazırda uğurlu daxili və xarici siyasət həyata keçirərək bir çox sahələrdə etibarlı tərəfdaş kimi qəbul edilir. Azərbaycanın xarici siyasət sahəsində qazandığı uğurlar onu dünyada söz sahibinə çevirərək, beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi, nüfuzunu daha da möhkəmləndirib. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz müxtəlif əməkdaşlıq layihələri ilə region və onun hüdudlarından kənarda sülh və sabitliyin sərhədlərinin genişləməsinə davamlı olaraq töhfələr verir.***

Regionumuzda baş verən proseslərin normallaşdırılması istiqamətində görülən işlər milli maraqlarımızın ifadəsidir. Dövlətimizin xarici siyasətində ikitərəfli və çoxtərəfli çərçivədə əlaqələrin qurulması və müxtəlif prioritetlər üzrə inkişaf etdirilməsi dövlətlərarası münasibələrin inkişafında mühüm rol oynayır.

Eyni soy-kökə və uzun tarixə söykənən Azərbaycan-Özbəkistan əlaqələri də bu gün yeni dövrün çağırışlarına uyğun olaraq inkişaf etdirilir. İki ölkə arasında qarşılıqlı hörmət və etimad üzərində qurulmuş əlaqələr ötən müddət ərzində siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə dinamik şəkildə inkişaf edib və səmərəli əməkdaşlıq daha da yüksəlib. Qarşılıqlı səfərlər, bu səfərlər çəçivəsində aparılan müzakirələr, imzalanan sənədlər gələcək inkişaf baxımından diqqətçəkəndir.

Azərbaycan-Özbəkistan münasibətlərinin bütün sahələrində, o cümlədən siyasi, sosial-iqtisadi, energetika, humanitar, təhsil, turizm, nəqliyyat, kənd təsərrüfatı istiqamətləri üzrə intensiv əməkdaşlıq müşahidə edilir. Azərbaycan-Özbəkistan ikitərəfli format ilə yanaşı, regional və beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edir və bir-birinin milli maraqları ilə bağlı məsələlərə həssaslıqla yanaşaraq, qarşılıqlı dəstək nümayiş etdirirlər.

### STRATEJİ TƏRƏFDAŞLIQ YENİ MƏRHƏLƏDƏ

Əlbəttə ki, Azərbaycan və Özbəkistanı çoxəsrlik qardaşlıq münasibətləri birləşdirir. Ümummilli Lider Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu xarici siyasi fəaliyyəti və qətiyyətli mövqeyi sayəsində Azərbaycan bölgədə böyük nüfuz sahibi olan ölkəyə çevrilmişdir. Azərbaycan Mərkəzi və Orta Asiya ölkələri ilə də sıx siyasi və iqtisadi əlaqələrə malikdir. Xalqlarımızın dil, din, mədəniyyət, mənəvi dəyərlər baxımından yaxınlığı, eyni zamanda ortaq tarixə malik olması bu əlaqələrə təsir göstərən mühüm amillərdəndir. Ölkəmizin Mərkəzi və Orta Asiyanın türkdilli dövlətləri arasındakı münasibətləri yüksələn xətlə inkişaf etməsinə Azərbaycanın Özbəkistanla olan əlaqələrini misal göstərmək olar. Azərbaycan-Özbəkistan əlaqələrinin bütün sahələrdə uğurla inkişafı, iki ölkə arasında imzalanan sənədlər strateji münasibətlərin və müttəfiqlik əlaqələrinin daha da möhkəmlənməsinə, ölkələrimiz arasında əməkdaşlığın ildən-ilə güclənməsinə gətirib çıxarır. Dövlət başçılarının qarşılıqlı səfərləri iki ölkə arasında strateji tərəfdaşlığın yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirir. Bu səfərlər təkcə siyasi və diplomatik əhəmiyyət daşımır, həmçinin iqtisadi əməkdaşlığın dərinləşdirilməsi və institusional çərçivədə möhkəmləndirilməsi baxımından ciddi irəliləyişlərə zəmin yaradır.

Şübhəsiz ki, Azərbaycan-Özbəkistan əlaqələri yeni dövrün reallıqlarına uyğun olaraq sürətlə inkişaf etdirilir. Özbəkistanda Azərbaycan kapitallı 240-dan çox, Azərbaycanda isə 70-ə yaxın Özbəkistan şirkəti fəaliyyət göstərir. 2024-cü ilin sonuna iki ölkə arasında ticarət dövriyyəsi 430 milyon dollara çatıb ki, bu da 2021-ci illə müqayisədə 3,5 dəfə çoxdur. Hər iki ölkə 2030-cu ilə qədər 1 milyard dollara çatmağı hədəfləyir. Bir müddət əvvəl yaradılmış birgə İnvestisiya Fondunun nizamnamə kapitalı 500 milyon dollardır. İki ölkə arasında energetika, mehmanxana biznesi, tikinti, kənd təsərrüfatı və bir çox digər sahələrdə artıq konkret perspektivi olan və razılaşdırılmış layihələrin, imzalanmış müqavilələrin birgə həyata keçirilməsi qarşılıqlı investisiyaları əhəmiyyətli dərəcədə artıracaq.

### RƏSMİ MÜTTƏFİQİK VƏ BEYNƏLXALQ ARENADA FƏAL QARŞILIQLI FƏALİYYƏT

Azərbaycan ilə Özbəkistan arasında iqtisadi-ticarət münasibətləri davamlı müsbət dinamika nümayiş etdirir. Bu ilin ilk beş ayında Özbəkistanla ticarət dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə üç dəfədən çox artaraq 200 milyon dolları ötüb. Ötən il Azərbaycan-Özbəkistan ikitərəfli tərəfdaşlığı üçün mühüm hadisələrlə zəngin olub. May ayında Quba şəhərində II Regionlararası Forum keçirilib, onun çərçivəsində Füzuli və Gülüstan, Biləsuvar və Tərmiz, Mingəçevir və Namanqan şəhərləri arasında qardaşlaşma sazişləri imzalanıb

Şübhəsiz ki, son illərdə Azərbaycan-Özbəkistan əlaqələri əməkdaşlığımızın gələcəkdə daha da möhkəmlənəcəyini göstərir. Hazırda ölkələrimiz arasında bütün sahələri əhatə edən strateji və çoxşaxəli əməkdaşlıq getdikcə dərinləşir və ikitərəfli münasibətlərin gələcək inkişafı üçün möhkəm təmələ çevrilir. 2022-ci il Azərbaycan-Özbəkistan əlaqələrinin inkişafı baxımından məhsuldar olub. Dövlətimizin başçısının Özbəkistana üç dəfə səfər etməsi Azərbaycan Prezidentinin qardaş ölkə ilə əməkdaşlığın inkişafına böyük önəm verməsinin göstəricisidir. 2023-cü il noyabrın 8-də isə Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısında iştirak etmək üçün Özbəkistanda səfərdə olub. Dövlətimizin başçısının bütün bu səfərləri zamanı əldə edilmiş razılaşmalar Mərkəzi Asiyanın aparıcı ölkələrindən olan Özbəkistanla əlaqələrimizin yeni mərhələdə əsas konturlarını müəyyənləşdirib.

Mühüm nəqliyyat marşrutlarının üzərində yerləşən ölkələrimiz bu sahədə də fəal əməkdaşlıq həyata keçirir. Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq Azərbaycanda bir sıra mühüm nəqliyyat-logistika infrastrukturu yaradılıb və ölkəmiz beynəlxalq nəqliyyat şəbəkələrinə inteqrasiya olunub. Bütün bunlar Azərbaycan vasitəsilə Mərkəzi Asiya ölkələrindən, o cümlədən Özbəkistandan yükdaşımaların həcminin daha da artmasına təkan verir. Prezident İlham Əliyevin 2022-ci ilin iyununda Özbəkistana dövlət səfəri zamanı imzalanan "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş" bu baxımdan mühüm əhəmiyyətə malikdir. "Azərbaycan və Özbəkistan müntəzəm dialoqun aparılması və qonşu ölkələrlə nəqliyyat siyasətinin koordinasiyası üzrə razılığa gəlib", - deyə Prezident bildirib.

Bildiyimiz kimi, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev cari ilin iyulun 2-də Azərbaycan Respublikasına dövlət səfəri iki ölkə arasında çoxəsrlik dostluq münasibətlərinin inkişafında mühüm əhəmiyyət kəsb etmiş oldu. Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana budəfəki dövlət səfəri iki ölkə arasında strateji tərəfdaşlığın yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirmiş oldu. Səfər çərçivəsində Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə mübadiləsi mərasimi keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının ikinci iclasının Qərarını imzalayıblar. Dövlətimizin başçısı çıxışında qeyd edib ki, bu gün biz həm ikitərəfli görüş, həm də Dövlətlərarası Şuranın iclası çərçivəsində ikitərəfli qarşılıqlı fəaliyyət məsələlərinin geniş spektrini müzakirə etdik, münasibətlərimizin strateji, müttəfiqlik xarakterini bir daha təsdiqlədik. Keçən il Daşkənddə qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında Müqavilə imzaladıq. Bu, istənilən ölkələrin münasibətlərində ən yüksək və əhəmiyyətli sənəddir. Biz artıq bir ildir ki, rəsmi müttəfiqik və bunu beynəlxalq arenada fəal qarşılıqlı fəaliyyətlə, qarşılıqlı dəstəklə, həmçinin bir çox sahədə həyata keçirilən plan və layihələrlə nümayiş etdiririk".

### ÖZBƏKİSTANLA ƏLAQƏLƏRİN YENİ MƏRHƏLƏSİNDƏ ƏSAS KONTURLAR

Dövlətlərarası "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Özbəkistan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında 2025-2027-ci illər üçün kənd təsərrüfatı və ərzaq təminatı sahəsində əməkdaşlığın gələcək inkişafı üzrə Praktiki Fəaliyyət Planını ("Yol xəritəsi")", "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Özbəkistan Respublikasının Nəqliyyat Nazirliyi arasında gəmiçilik və gəmiqayırma sahələrində əməkdaşlıq haqqında Niyyət Protokolu", "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında ticarət dövriyyəsinin 2030-cu ilədək 1 milyard ABŞ dollarına çatdırılması üzrə kompleks tədbirlərin və layihələrin formalaşdırılması və həyata keçirilməsinin təmin edilməsi üzrə Fəaliyyət Planı", "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında 2025-2027-ci illər üzrə sənaye əməkdaşlığı Proqramı", "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında elm, peşə təhsili və ali təhsil sahələrində əməkdaşlığa dair Saziş"i və s. sənədlər imzalanıb.

### ÖLKƏLƏRİMİZ ARASINDA HƏMRƏYLİYİN, DOSTLUĞUN, QARDAŞLIĞIN NÖVBƏTİ ADDIMI

"Biz Qarabağın bərpasına göstərdiyi köməyə görə xüsusi minnətdarlığımızı bildiririk. Özbəkistan birinci ölkə, öz təşəbbüsü ilə Qarabağ bölgəsinin bərpasına dərhal yardım edən Prezident Mirziyoyev dünyada ilk lider olub. Sosial təhsil infrastrukturunun ilk obyekti isə məhz Özbəkistanın tikdirdiyi bu məktəbdir və mən Şavkat Miromonoviçlə onun açılışını etmişik. O, özbək xalqının böyük oğlu Mirzə Uluqbəyin adını daşıyır və burada öz əcdadlarının torpağına qayıdan uşaqlar təhsil alırlar", - deyəA Prezidenti İlham Əliyev bildirib. Ölkəmizdə "Özbəkistan" parkının təməlini qoyulması, ölkələrimiz arasında imzalanmış sənədlərin mübadilə edilməsi, Özbəkistan səfirliyinin yeni binasının açılışı münasibətlərimizin müsbət strateji inkişaf prosesi yaşadığını və çoxşaxəli əməkdaşlığın sürətlə genişləndiyini sürətləndiyini deməyə imkan verir.

Xüsusi olaraq Azərbaycanın suverenliyinin bərpa olunması işində Özbəkistanın və özbək xalqının dəstəyi qeyd olunmalıdır. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən məktəb 960 şagird yerlikdir. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilib. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, 500 yerlik akt zalı, idman zalı, 320 yerlik yeməkxana, kitabxana var. Məktəbin həyətyanı ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, söhbətgahlar, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa edilib. Qeyd edək ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır" sözlərinin təsdiqi olan bu məktəbin inşası qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyev də Özbəkistanın Füzuli rayonunda böyük məktəb inşa etmək təşəbbüsünü ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti addımı kimi qiymətləndirmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "Qardaş ölkələr, müttəfiqlər kimi inamla, layiqincə, çiyin-çiyinə addımlayırıq və irəliləməyə davam edəcəyik".

***Nəzakət ƏLƏDDİNQIZI***



# Baş nazir İqtisadi Şuranın iclasını keçirib

Dünən İqtisadi Şuranın növbəti iclası keçirilib. Bu barədə Nazirlər Kabinetindən mətbuata məlumat verilib. İqtisadi Şuranın sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində "2026-cı il və sonrakı üç il üçün dövlət və icmal büdcələrinin proqnozları"nın hazırlanması üçün mühüm əhəmiyyət kəsb edən büdcə-vergi siyasəti, "Azərbaycan Respublikasının Vergi Məcəlləsi"nə ediləcək dəyişikliklər və cari iqtisadi məsələlər müzakirə olunub. Gündəlikdə olan məsələlər üzrə maliyyə naziri Sahil Babayevin, iqtisadiyyat naziri Mikayıl Cabbarovun və əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyevin təklifləri dinlənilib və İqtisadi Şuranın üzvləri tərəfindən müzakirələr aparılıb. İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla aidiyyəti dövlət orqanlarına müvafiq tapşırıqlar verilib.

# XİN: Ayvazovskinin büstünün Azərbaycan tərəfinin icazəsi olmadan torpaqlarımızda quraşdırılması qanunsuz idi

***Rusiya Prezidentinin beynəlxalq mədəniyyət əməkdaşlığı üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy ilk dəfə deyil ki, müvafiq tapşırıq əsasında anti-Azərbaycan kampaniyasına qoşulur.***



AZƏRTAC xəbər verir ki, bunu Rusiya Prezidentinin xüsusi nümayəndəsi Mixail Şvıdkoyun Ayvazovskinin büstünün sökülməsi məsələsinə dair açıqlaması və TASS informasiya agentliyi tərəfindən Azərbaycanın Xankəndi şəhərinin "Stepanakert" adlandırılması ilə bağlı Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə yerli mətbuatın suallarına cavabında deyib.

A.Hacızadə qeyd edib ki, "ermənəsilli rəssam İvan Ayvazovskinin (Hovanes Ayvasyan) büstünün Rusiya sülhməramlıları tərəfindən Azərbaycan tərəfinin icazəsi olmadan torpaqlarımızda quraşdırılması qanunsuz idi. Bu, Azərbaycan Respublikasının suverenliyinə münasibətdə Rusiya tərəfindən hörmətsizliyin təzahürü olub.

Azərbaycan ərazilərinin işğalı zamanı qanunsuz olaraq qoyulmuş bu kimi dırnaqarası abidələrin sökülməsi məntiqli, düzgün və qanunauyğundur.

Cənab Şvıdkoyun guya Azərbaycanda Rusiya mədəniyyətinin "ləğv edilməsi" iddiaları növbəti yalandır. Baxmayaraq ki, bu sahədə iki ölkə arasında ciddi disparitet mövcuddur, Rusiya mədəniyyətini Azərbaycanda heç kim ləğv etməyib. Belə ki, Azərbaycanda rus teatrı, rus dilində məktəblər, rus dilində nəşrlər olduğu halda, Rusiyada Azərbaycan dilində teatr, məktəblər, qəzet və jurnallar mövcud deyil. Bu disparitetə baxmayaraq, biz Rusiyada Azərbaycan mədəniyyətinin "ləğv edilməsi" iddiası ilə çıxış etmirik. Amma Rusiyanın yüksəkvəzifəli rəsmiləri bilməlidir ki, əgər onların anti-Azərbaycan tədbirləri və açıqlamaları davam edərsə, Azərbaycanla Rusiya arasında qeyd edilən disparitetə düzəlişlər edilməsi istisna olunmur.

Cənab Şvıdkoyun bu yaxınlarda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində, Şuşada olan zaman Natəvan, Üzeyir Hacıbəyli, Bülbül və Azərbaycanın digər mədəniyyət xadimlərinin abidələrinə qarşı vandallıqlar, habelə Azərbaycan ərazisində törədilmiş dağıntılarla tanış olarkən cəsarət tapıb bu halları pisləyən açıqlamalar verməməsi təəssüf doğurur.

Rusiya Federasiyasının rəsmi dövlət agentliyi olan TASS-da Azərbaycanın Xankəndi şəhərinin "Stepanakert" adlandırılması ölkəmizin ərazi bütövlüyünə hörmətsizlik və təhqiramiz addım kimi qiymətləndirilir.

Bu qeyri-dost addımla bağlı Rusiya tərəfinə xatırlatmaq istərdik ki, hələ 1923-cü ildə Azərbaycanın əzəli torpaqlarında yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətində Xankəndi şəhərinin adının qanunsuz olaraq dəyişdirilərək Azərbaycan xalqına qarşı daşnak ermənilərlə birgə qırğınlar törətmiş bolşevik Stepan Şaumyanın şərəfinə "Stepanakert" adlandırılması Azərbaycana qarşı həqarət idi.

Rusiya tərəfinə bildirmək istərdik ki, onun rəsmi orqanları tərəfindən Azərbaycan toponimlərinin təhrif olunması və ərazilərimizin keçmiş separatçı qondarma rejim tərəfindən istifadə olunan adlarla qeyd olunması hallarına son qoyulmasını gözləyirik. Bu kimi hallar təkrarlanarsa, qarşılıqlı prinsipindən irəli gələrək Azərbaycan tərəfi də Rusiya ərazisində bir çox yaşayış yerini öz əzəli adları ilə qeyd edə bilər.

TASS informasiya agentliyindən bu məsələdə üzrxahlıq və müvafiq düzəliş edilməsini gözləyirik. Əks təqdirdə, qanunvericiliyə uyğun olaraq, TASS-ın Azərbaycanda fəaliyyətinə qarşı müvafiq tədbirlər görülməsi nəzərdə tutulur".

# Arif İmran oğlu Babayev



Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Milli muğam sənətinin görkəmli nümayəndəsi, Xalq artisti, Heydər Əliyev Mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Azərbaycan Milli Konservatoriyasının professoru Arif İmran oğlu Babayev 2025-ci il avqustun 1-də ömrünün 88-ci ilində vəfat etmişdir.

Arif Babayev 1938-ci il fevralın 20-də Ağdam rayonunun Sarıhacılı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1962-1968-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunda ali təhsil almışdır.

Əmək fəaliyyətinə hələ tələbə ikən – 1966-cı ildə Azərbaycan Dövlət Opera və Balet Teatrında solist olaraq başlayan Arif Babayev 1981-ci ildən Bülbül adına orta ixtisas musiqi məktəbində müəllim işləmiş, 1984-2000-ci illərdə indiki Bakı Musiqi Akademiyasında muğam ixtisası üzrə dərs demiş, 2002-ci ildən ömrünün sonunadək Azərbaycan Milli Konservatoriyasında professor və kafedra müdiri vəzifələrində çalışmışdır.

Qarabağ xanəndəlik məktəbinin parlaq simalarından olan Arif Babayev Azərbaycanın musiqi mədəniyyəti xəzinəsinə dəyərli töhfələr vermişdir. O, sələflərinin sənət ənənələrini yaradıcılıqla davam etdirərək, özünəməxsus ifaçılıq dəst-xəti formalaşdırmış və bütün fəaliyyəti ərzində muğamın klassik ifa tərzinin qorunub saxlanmasında təqdirəlayiq xidmətlər göstərmişdir. Məlahətli və zəngin çalarlı səs tembrinə malik sənətkar milli muğam sənətinin vokal formasına yeni nəfəs gətirməklə dinləyicilərin məhəbbətini qazanmışdır.

Arif Babayevin yüksək məharətlə ifa etdiyi "Qarabağ şikəstəsi", "Segah", "Çahargah", "Rast", "Şur", "Bayatı-Şiraz" və digər muğamlar milli muğam sənətinin qızıl fonduna daxil olaraq Azərbaycanın musiqi sərvətləri xəzinəsini daha da zənginləşdirmişdir. Xanəndənin xüsusi zövq və ustalıqla oxuduğu təsniflər və xalq mahnıları Azərbaycanın musiqi mədəniyyəti inciləri sırasında layiqli yer tutur. Arif Babayev uzun illər muğam operalarında əsas partiyaların ifaçısı kimi canlandırdığı yaddaqalan obrazlarla musiqi salnaməmizdə dərin iz qoymuşdur. Onun dahi bəstəkar Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" əsərində yaratdığı Məcnun obrazı opera tariximizdəki ən unudulmaz ifalardandır.

Arif Babayev dünyanın müxtəlif ölkələrinə qastrol səfərləri zamanı Azərbaycan mədəniyyəti günlərində və beynəlxalq musiqi festivallarında milli mədəniyyətimizi uğurla təmsil etmiş, çıxışları ilə musiqimizi müxtəlif xalqların nümayəndələrinə sevdirməyi bacarmışdır. Uzun müddət pedaqoji fəaliyyət göstərən ustad xanəndə keçdiyi həyat və sənət yolu ilə örnək olmuş, ifaçıların bir neçə nəslinin mənsub olduğu böyük məktəb yaratmışdır. Muğamla bağlı gerçəkləşdirilən layihə və proqramlarda yaxından iştirakı Arif Babayevin ölkədə muğam ifaçılığı ənənələrinin yaşadılması istiqamətində apardığı səmərəli işlərlə vəhdət təşkil edirdi.

Arif Babayev milli musiqi mədəniyyətinin inkişafı sahəsində qazandığı mühüm nailiyyətlərinə görə 1998-ci ildə Azərbaycan Respublikasının ali mükafatlarından olan "Şöhrət", 2008-ci ildə "İstiqlal" və 2018-ci ildə "Şərəf" ordenləri, 2023-cü ildə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" və 2025-ci ildə Heydər Əliyev Mükafatı ilə təltif edilmişdir.

Görkəmli xanəndə, mahir pedaqoq və səmimi insan Arif İmran oğlu Babayevin xatirəsi sənətsevərlərin qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

İlham Əliyev
Mehriban Əliyeva
Əli Əsədov
Sahibə Qafarova
Samir Nuriyev
Eldar Əzizov
Fərəh Əliyeva
Adil Kərimli
Emin Əmrullayev
Polad Bülbüloğlu
Zeynəb Xanlarova
Alim Qasımov
Səkinə İsmayılova
Mənsum İbrahimov

# Xanəndəlik məktəbində möhtəşəm abidəsini ucaldan sənətkar





*Mehriban Əliyeva: "Arif Babayevin vəfatı mədəniyyətimiz, bütün xalqımız üçün əvəzsiz itkidir"*

***Azərbaycan xanəndəlik sənətindən də bir ömür karvanı belə yol alıb getdi. Sözü ilə, avazı ilə, gözəl səsi ilə, özünəməxsus ifası ilə. Yaddaşlarda, musiqi sənəti dünyasında özünün portretini yaradıcılıq yolu ilə yaradan böyük ustad sənətkar. Zaman-zaman yaşanacaq və musiqi dünyamıza zəngin irs bəxş etmiş Arif Babayev. Bu ismin qarşısında zəhmət və istedadın nəticəsi olaraq Azərbaycan xanəndəsi, Azərbaycan SSR xalq artisti, professor kimi adlar yazılıb. 87 illik ömrün zəhməti. Arif Babayev uzun illər ərzində milli musiqi sənətimizin inkişafında, muğam məktəbinin qorunub saxlanılmasında və yeni nəsil ifaçıların yetişdirilməsində böyük xidmətlər göstərib.***

"Azərbaycan muğam sənətinin görkəmli nümayəndəsi Arif Babayevin vəfatı mədəniyyətimiz, bütün xalqımız üçün əvəzsiz itkidir. O, yaşından asılı olmayaraq hər kəsin sevdiyi əsl Xalq artisti idi. Onun məharətlə ifa etdiyi muğamlar milli musiqi irsimizi daha da zənginləşdirmişdir. Arif Babayevin xoş, nurlu xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. Allah rəhmət eləsin". Bu sözlər Azərbaycanın Birinci vitse-prezident Mehriban Əliyevanın Arif Babayevin vəfatı ilə əlaqədar etdiyi paylaşımda yer alıb.

Bəli, Qarabağ xanəndəlik məktəbinin görkəmli nümayəndəsi, Xalq artisti Arif Babayev dünyasını dəyişdi. Seyid Şuşinski, Xan Şuşinski, Zülfü Adıgözəlov kimi sənətkarların ənənələrinə əsaslanaraq özünəməxsus ifaçılıq üslubu yaradan sənətkar zəngin yaradıcılıq qalereyasına sahibdir. Arif Babayev 1938-ci il mayın 16-da Ağdam rayonunun Sarıhacılı kəndində anadan olmuşdur. Uşaq yaşlarından musiqiyə böyük maraq göstərmiş, klassik muğam məktəbinin ənənələrini dərindən mənimsəmişdir. Uşaq yaşlarından musiqiyə böyük maraq göstərmiş, klassik muğam məktəbinin ənənələrini dərindən mənimsəmişdir. Onun istedadı gənc yaşlarından tanınmış və o, Azərbaycanın muğam sənətində özünəməxsus ifa tərzi ilə seçilməyə başlamışdır. 1953–1957-ci illərdə Bakı Musiqi Texnikumunda, daha sonra isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil almışdır. Arif Babayev sənət fəaliyyətinə 1963-cü ildə Azərbaycan Televiziya və Radiosunun solisti kimi başlamış və qısa müddət ərzində böyük populyarlıq qazanmışdır.

## SƏS TƏKCƏ SƏNİN YOX, HƏM DƏ XALQIN, TAMAŞAÇININDIR

Onun yaradıcılığında "Şur", "Segah" muğam dəsgahları, "Arazbarı", "Qarabağ şikəstəsi" zərbi muğamları xüsusi yer tutur. Xüsusilə, "Segah" muğamını Arif Babayev təkrarolunmaz üslubda oxuyub. Xanəndə, həm də təsnif və xalq mahnılarının mahir ifaçısı kimi çox sevilirdi. "Səs Allah vergisidir, o, təkcə sənin yox, həm də xalqın, tamaşaçınındır. Peşəkarlığı məktəbdə öyrənmək olur, amma səs ya var, ya yoxdur. Onu qorumaq, sənətə çevirmək gərəkdir", - deyirdi Arif Babayev.

Yaradıcılıq imkanları nəzərə alınaraq o, Azərbaycan Dövlət Filarmoniyasına, sonra isə Azərbaycan Dövlət Opera və Balet Teatrına solist kimi dəvət olunur. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində yaratdığı obrazlar onun sənətinin parlaq nümunəsinə çevrilmişdi. Uzun illər teatrın solisti kimi fəaliyyət göstərən Arif Babayev yorulmadan çalışaraq saysız tamaşaçı sevgisinə nail olmuşdur. Bu sevgi onun sənət potensialına olan sevgi idi. Ağır təbiətinə idi. Burada çalışdığı müddətdə, qısa bir zaman ərzində teatrın səhnəsində muğam operalarında Məcnun, Kərəm (Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" və "Əsli və Kərəm" operaları), Aşıq Qərib (Zülfüqar Hacıbəyovun "Aşıq Qərib" operası), Camal (Şəfiqə Axundovanın "Gəlin qayası" operası), Şah İsmayıl (Müslüm Maqomayevin "Şah İsmayıl" operası) kimi yaddaqalan obrazları yaradıb.

## FÜZULİ ŞEİRİ VƏ ÜZEYİR MUSİQİSİ İLƏ ƏSL SƏNƏT

Yaradıcılığında mühüm yerlərdən birini tutan "Leyli və Məcnun" operasında Arif Babayevin tərəf müqabilləri böyük sənətkarlar Rübabə Muradova, Zeynəb Xanlarova, Nəzakət Məmmədova, Qəndab Quliyeva, Səkinə İsmayılova, Yaqut Abdullayeva olmuşdurlar. Hər bir ifaçı ilə böyük bir səhnə yaradaraq Məcnun obrazına öz möhrünü vurmuşdur. Opera və Balet Teatrının səhnəsini ciddi sənət ocağı adlandıran xanəndə Məcnun obrazı ilə böyük şöhrət qazandı. Füzuli şeiri və Üzeyir musiqisi ilə əsl sənət nümayiş etdirdi.

"Əsli və Kərəm"də onun tərəf müqabilləri Rübabə Muradova, Zeynəb Xanlarova, Nəzakət Məmmədova, Rəsmiyyə Sadıqova, "Şah İsmayıl"da Gülxar Həsənova, Qəndab Quliyeva, Səkinə İsmayılova, Sahibə Əhmədova olublar.

"Gəlin qayası" və "Aşıq Qərib" operalarında Arif Babayev əsasən Nəzakət Məmmədova ilə oynayıb. Opera aktyoru üçün vacib şərtlərdən biri də odur ki, müğənni solist olmaqla və vəziyyətdən asılı olaraq yaranan psixoloji ovqatları "yaşamaqla" yanaşı, tərəf müqabilini musiqi dialoqlarında həssaslıqla duya bilsin. Bu məharət böyük sənətkara məxsus idi. Yaratdığı rollara yaradıcı şəkildə yanaşan sənətkar həyatını canlandırdığı partiyaların duğularını, həyat hekayələrini özünüküləşdirərək təqdim edirdi. Səsinin tonunda bu hissləri yaşayırdı. Arif Babayevin dediyi kimi, operalarda çox oynamışam: "Üzeyir bəyin əsərləri həmişə cavandır. O yaşayıb və daim yaşayacaq. Bu operalar həm də xanəndəni aktyora çevirir. Səhnədə rol aparmaq ayrı, oxumaq isə başqa olsa da, gərək onları birləşdirməyi bacarasan".

## "SƏSİ GƏRƏK QORUYASAN, KÜLƏK, SOYUQ HAVA"

Səsi ilə milyonların qəlbini riqqətə gətirən, ruhi dünyasına zənginlik bəxş edən Arif Babayev uzun yaradıcılıq yolu ilə musiqi xəzinəmizə orijinal, fərqli səsini əbədi olaraq həkk edib. Səsini xalq üçün, sənət üçün qorudu: "Səsi gərək qoruyasan, külək, soyuq hava ona pis təsir edir. Konsert zamanı soyuq olanda xırıltı yaranır və bu da çətinlik törədir. Ona görə də xanəndəlik çox çətin sənət sayılır. Uzun illərdir mən buna şahidəm, çox çətindir".

Arif Babayev müsahibələrinin birində bildirib ki, sənətkar olmaq üçün doğruluq, saflıq və xalqa xidmət əsasdır. Gözəl səsə malik olmaq, xalqı sevindirmək və onun sevgisini qazanmaq lazımdır. Çünki xalqını sevən sənətkar özü də xalq tərəfindən sevilir və qorunur. Bu onun sənətə olan məhəbbətindən, istedadından və bacarığına tələbkarlığından irəli gəlib. Hər zaman səhnədə ağıryanalığı ilə seçilən müğənni ömrünün son gününə qədər bir imicdə tamaşaçı ilə görüşdə, ünsiyyətdə oldu. Səsinin hökmü, çalarları ilə musiqi tariximizdə yeni bir səhifəni açdı.

Azərbaycan milli musiqisinin ən yüksək zirvəsi sayılan xanəndəlik sənətini inkişaf etdirərək daha da irəli aparıb. Muğam sənətində qazandığı yüksək nailiyyətlərlə yanaşı, Arif Babayev uzun illər ərzində pedaqoji fəaliyyətlə də məşğul olmuş, Bülbül adına Orta ixtisas musiqi məktəbində və Azərbaycan Milli Konservatoriyasında çalışaraq, muğam sənətinin yeni nəsil ifaçılarının yetişdirilməsində müstəsna rol oynamışdır. Onun yetirmələri bu gün Azərbaycanın və dünyanın müxtəlif səhnələrində uğurla çıxış edirlər.

## XANƏNDƏNİN YARADICILIĞINA VERİLƏN QİYMƏT

Dövlətimiz tərəfindən muğam sənətimizin inkişafındakı xidmətləri görə A.Babayevin yaradıcılığı həmişə yüksək qiymətləndirilib. O, "Şöhrət", "İstiqlal" və "Şərəf" ordeninə layiq görülüb. Ona 2010-cu ildə Heydər Əliyev Fondunun təsis etdiyi Beynəlxalq "Qızıl Çinar" mükafatı təqdim edilib. A.Babayevin 70 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən xanəndənin səsyazılarından, həyat və yaradıcılıq yolunu əks etdirən şəkillərdən ibarət CD-albom nəşr olunub. Əməkdar incəsənət xadimi, professor İlham Rəhimli "Seygah yanğısı", Rüzgar Əfəndiyeva "Vətəndir Arifin səsi" kitablarını Arif Babayevin yaradıcılığına həsr ediblər. Elm və Təhsil Nazirliyi tərəfindən "Arif Babayevin mahnı və təsnifləri" adlı kitab ali və orta ixtisas musiqi məktəbləri üçün dərs vəsaiti kimi nəşr edilib. Müxtəlif illərdə Arif Babayevin həyat və yaradıcılığına həsr olunmuş yeddi sənədli film çəkilib.

A.Babayev dünyanın 50-dən çox ölkəsində qastrol səfərlərində olub, Azərbaycan muğamını ləyaqətlə xarici ölkə tamaşaçılarına təqdim edib, Amerika, Avropa və Asiyanın bir çox ölkələrində Azərbaycan muğam sənətini musiqisevərlərə tanıdıb. Onun səsi respublikada və xaricdə qrammofon vallarına və kompakt disklərə yazılıb. Onun yetirmələri bu gün muğam sənətinin tanınmış simalarıdır.

Arif Babayev dünyasını dəyişsə də, xanəndəlik sənətində böyük abidəsini ucaltdı və xanəndəlik məktəbindən heç zaman silinməyəcək irsini nəsillərə ərməğan etdi. Allah rəhmət etsin!

***Zümrüd BAYRAMOVA***



# Tolerantlıq ünvanı – AZƏRBAYCAN!

***Tolerantlıq hər bir xalqın xarakteri, eləcə də özünüifadə forması və həyat tərzidir. Bizim xalqımızın da, Azərbaycan xalqının da fərqliliyi və zənginliyi məhz tolerantlıq ənənələri ilə bağlıdır. Xüsusilə də, demokratiyanın təməl prinsiplərindən olan vicdan azadlığının təmin edilməsi və qanunun aliliyi baxımından tolerantlıq həm də cəhalətin, irqçiliyin, ksenofobiyanın süqutu, nəticə etibarilə isə cəmiyyətdə əmin-amanlıq, bəşəriyyətdə isə sülhün təminatına böyük bir töhvədir və xalqımız özünün qədim tarixə malik olan bu ənənələri ilə hələ də bəşəriyyətə töhvə verməkdədir.***



Tarix boyu müxtəlif konfessiyaların, fərqli dini inanclara sahib çıxan xalqların birgə yaşadığı ölkə, diyar olan Azərbaycan haqlı olaraq, bəşər tarixində əmin-amanlıq nümunəsi olub. Ona görə əmin-amanlıq nümunəsi olub ki, bizim diyarımızda ayrı-ayrı etiqad və inanclara malik etnosların yüz illərlə əmin-amanlıq şəraitində yaşamasında humanizm dəyərləri gözlənilib. Özü də çox yüksək səviyyədə gözlənilib. Xalqımız tarix boyu hansısa fərqli inanca sahib olan tayfalara, etnik qruplara, müxtəlif xalqların nümayəndələrinə, başqa dini inanclara sahib insanlara qətiyyən hansısa fərq qoymayıb. Bizim diyarımız hər zaman başqa millətlərin, ayrı-ayrı xalqların, etnosların belə rahat şəkildə məskunlaşdıqları diyar olub. Dini inancından, əqidəsindən asılı olmayaraq, insanlara bizim xalqımız tarix boyu zərrə qədər də fərq qoymayıb. Bunu təsdiq edən faktlar, arqumentlər kifayət qədərdir və hələ də, günümüzə qədər həmin faktlar göz önündədir.

Bizə məxsus olan tolerantlıq ənənələrini sübut edən faktlar kifayət qədər çox olsa da, tolerantlığın yüksək dəyərini sübut edən əsas fakt Bakıda ”Fəvvarələr bağı”nın yanında erməni kilsəsinin mövcudluğu hesab olunmaqdadır. Bu da səbəbsiz deyil. Əvvəla ona görə ki, tarix boyu ermənilərin, hayların bizim xalqımıza qarşı nə qədər xaincəsinə yanaşdığını bütün dünya ictimaiyyəti də çox yaxşı bilir. Yaxşı bilir ki, xalqımız tərəfindən nə qədər xoş münasibət bəslənilsə də, torpaqlarımızda məskunlaşdırılsalar da, hayların hər zaman xaincəsinə davranış sərgiləmələri qarşılığında onlara qarşı hansısa haqsızlıq, həqarət olunmayıb, onların inanclarına belə hörmətsizlik edilməyib. Bizim özümüzə məxsus olan ərazilərimizdə, daha dəqiq desək, ermənilər tərəfindən əsrin üçdə birinə yaxın müddət ərzində işğal altında saxlanılan torpaqlarımızda məscidlərimizi işğalçı hayların viran etmələri, ibadət yerlərimizdə, məbədlərimizdə heyvan, xüsusən də İslam dinində çox murdar və haram sayılan donuz saxlamaları, həmin müqəddəs sayılan yerləri təhqir etmələri fonunda, hələ də paytaxt Bakıda erməni kilsəsi olduğu kimi qalır. Həmin kilsəyə dəyən, toxunan yoxdur və bunun özü ən böyük tolerantlıq nümunəsidir, hansıki, dünya xalqları bunu çox yaxşı başa düşürlər və xalqımızın məhz özünün öz tolerantlıq ənənələri ilə bəşəriyyətə hələ də töhvə verməkdə olduğunu qəbul da, etiraf da edirlər.

Uzun illər boyu, düz otuz ilə yaxım müddət ərzində Azərbaycanla Ermənistanın müharibə şəraitində olduğunu və ermənilərin azərbaycanlılara qarşı vandalizmini, hayların bizim dini inancımıza, ibadət yerlərimizə, müqəddəs məkanlarımıza təhqiramiz münasibət bəsləmələrini nəzərə alan insanlar tam məntiqi şəkilsə düşünə bilərdilər ki, bu kilsə çoxdan dağıdıla bilərdi. Amma dünya ictimaiyyəti bir daha gördü və əmin oldu ki, bizim düşüncəmiz heç zaman nifrət üstündə qurulmayıb və bizim üçün tolerantlıq çox böyük bir dəyərdir. Nə dövlət, nə də əhali, insanlar, vətəndaşlarımız tərəfindən erməni kilsəsini dağıtmaq təşəbbüsünün belə heç zaman olmaması, hazırda kilsənin tam təchizatı ilə mövcud olması haqlı olaraq, xalqımızın məhz tolerantlıq nümunəsi olduğunu təsdiq edən məqam sayılır.

Məsələ burasındadır ki, xalqımız üçün, ölkəmiz üçün tolerantlıq tarixi ənənəyə dayanır. Heç kim üçün sirr deyil ki, bizim diyarımız, Odlar yurdu olan yurdumuz müsəlmanlar, xristianlar, yəhudilər üçün hər zaman yaşamaq üçün ideal məkan sayılıb və ideal məkan olub da. Tarix boyu hər kəs öz dini inancını, sosial fəaliyyətini rahat şəkildə yerinə yetirə bilib və hələ də yetirə bilir, çünki xalqımız tarixən məzhəblər və millətlər arasında qardaşlıq aşılayıb. Yurdumuza gələn xarici qonaqlar da bunu təsdiq edirlər ki, burada, bizim ölkəmizdə dinlərarası, millətlərarası unikal sistem lap qədimdən mövcuddur. Ümumiyyətlə, etiraf da edirlər ki, Azərbaycan bu göstəricisinə görə, dünyaya örnəkdir. Bu bir reallıqdır. Həqiqətən də başa da düşürlər ki, əgər tolerantlıq avropalı üçün hüquqi bir vəzifədirsə, azərbaycanlı üçün bu mənəvi məsələ sayılır.

Dövlət səviyyəsində belə tolerantlığa xüsusi önəm verilir. Təbii ki, ölkəmizdə mövcud ictimai sabitliyin, vətəndaş həmrəyliyinin və etnik dini tolerantlığın milli siyasətin məntiqi nəticəsi olduğu da təkzib edilə bilməz. Dini tolerantlıq sahəsində əldə edilən uğurların məhz dini zəmində ekstremizmə və ayrı-seçkiliyə qarşı mübarizədə faydalı nəticə verdiyi də göz önündədir. Azərbaycan üzərinə düşən mənəvi borcu, tolerantlıq ənənələrini layiqincə davam etdirməkdədir. Əgər müstəqilliyinin ilk dövrlərində Azərbaycan dünyada gedən dinlər və mədəniyyətlərarası dialoq prosesinin aktiv iştirakçısı idisə, indi artıq demək olar ki, bu prosesin hərəkətverici qüvvəsinə çevrilib. Hər kəs çox aydın şəkildə görür ki, Azərbaycan beynəlxalq miqyasda dinlərarası dialoq mərkəzinə çevrilməkdədir. Son illərdə Dünya Dini Liderləri Sammitinin, MDB Dinlərarası Şurasının, MDB Müsəlmanları Məşvərət Şurasının, Qafqaz Xalqları Ali Dini Şurasının toplantılarının Bakıda keçirilməsi bunun, ölkəmizin məhz beynəlxalq miqyasda dinlərarası dialoq mərkəzinə çevrilməkdə olduğunun təsdiqi olaraq qeyd edilir. Bundan başqa, 2009-cu ildə paytaxt Bakının məhz İslam Mədəniyyəti paytaxtı elan edilməsi, İSESKO tərəfindən 2018-ci il üçün ”Naxçıvan İslam mədəniyyətinin paytaxtı” elan edilməsi, Gəncənin və Şəkinin də ”İslam mədəniyyətinin paytaxtları” layihəsində iştirak etmələri dünyanın ölkəmizə tolerantlığın yüksək səviyyədə inkişaf etdiyi məkan kimi etimad göstərməsinin nəticəsidir. Deməli, məhz xalqımızın özünün tolerantlıq ənənələri ilə bəşəriyyətə töhvə verməkdə olduğu artıq beynəlxalq miqyasda da qəbul və etiraf olunur.

***İnam Hacıyev***



# “Mədəniyyətə və tarixi irsə bu cür yanaşma Prezidentin fəaliyyətində daim prioritet olub”

***“Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 30 iyul 2025-ci il tarixli “Gəncə Memorial Kompleksində tikinti-quraşdırma işlərinin tamamlanması və muzey ekspozisiyasının təşkili ilə bağlı tədbirlər haqqında” sərəncamı ölkə başçısının mədəni irsimizin qorunmasına, Vətən müharibəsi şəhidlərinin və mülki qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə verdiyi yüksək dəyərin növbəti bariz nümunəsidir. Bu sənəd yalnız bir infrastruktur layihəsi haqqında deyil, həm də tarixi yaddaşın yaşadılması, milli kimliyin gücləndirilməsi və gələcək nəsillərə tariximizin obyektiv şəkildə ötürülməsi istiqamətində düşünülmüş dövlət siyasətinin davamıdır. Gəncə şəhəri İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın raket hücumlarına məruz qalmış, çoxsaylı günahsız insanların həlak olduğu, evlərin, məktəblərin və sosial obyektlərin dağıdıldığı bir şəhər kimi tarixə düşmüşdür.***

Bu kompleks həmin faciənin şahidliyini daşıyacaq və həm ölkə vətəndaşlarına, həm də beynəlxalq ziyarətçilərə Azərbaycanın haqq savaşının və bu mübarizədə qurban verilən dəyərlərin əhəmiyyətini çatdıracaq”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Mədəniyyət Komitəsinin üzvü, deputat Ülviyyə Həmzəyeva deyib.

Ülviyyə Həmzəyeva sözlərinə belə davam edib: “Mədəniyyətə və tarixi irsə bu cür yanaşma Prezident İlham Əliyevin fəaliyyətində daim prioritet olub. Təkcə Gəncə Memorial Kompleksi deyil, ölkə başçısının imzaladığı bir sıra mühüm sənədlər və sərəncamlar bu istiqamətdə dövlət siyasətinin sistemli şəkildə həyata keçirildiyini göstərir. Prezident İlham Əliyevin təşəbbüsü və birbaşa nəzarəti ilə bu günə kimi həyata keçirilmiş layihələr arasında Şuşanın Azərbaycan mədəniyyətinin paytaxtı elan edilməsi, Şuşa Bəyannaməsinin imzalanması, Xarıbülbül Musiqi Festivalının bərpası, Zəngilan, Füzuli və Ağdamda yeni mədəniyyət mərkəzlərinin, muzey və abidələrin inşası xüsusi yer tutur. Bununla yanaşı, Bərdə, Gəncə, Naxçıvan, Quba və Bakı şəhərlərindəki tarixi abidələrin bərpası, muzey ekspozisiyalarının yenilənməsi, İçərişəhər və Şəki kimi UNESCO-nun dünya irsi siyahısına daxil edilmiş abidələrin mühafizəsi də Prezidentin bu sahəyə göstərdiyi davamlı diqqətin sübutudur.

2020-ci il Vətən müharibəsindən sonra işğaldan azad olunan ərazilərdə tarixi abidələrin və dini məkanların bərpası da Ölkə Başçısının mədəniyyət siyasətinin əsas istiqamətlərindən biridir. Bu çərçivədə Şuşa şəhərində Yuxarı Gövhər Ağa məscidinin, Saatlı məscidinin, Mehmandarovlar ev kompleksinin, həmçinin Ağdam Cümə məscidinin bərpası həyata keçirilir. Bununla yanaşı, Cıdır düzü, Şuşa qalası, Vaqif türbəsi və digər tarixi simvollar yenidən Azərbaycanın mədəni kimliyinə qovuşdurulmaqdadır. Prezident İlham Əliyevin mədəniyyətə və tarixə yanaşması yalnız formal dəstək deyil, dərin strateji baxışın, dövlətçilik fəlsəfəsinin və milli-mənəvi dəyərlərə hörmətin ifadəsidir. Mədəniyyət bir millətin ruhu, yaddaşı və gələcəyidir. Gəncə Memorial Kompleksi kimi layihələr bu yaddaşı canlı saxlamaqla yanaşı, eyni zamanda beynəlxalq ictimaiyyətə Azərbaycanın haqlı mövqeyini mədəniyyət diplomatiyası vasitəsilə çatdırmaq imkanlarını genişləndirir. Hazırkı sərəncamla ölkə Prezidenti bir daha sübut edir ki, Azərbaycanın bugünkü inkişaf modeli təkcə iqtisadi göstəricilərlə deyil, həm də mədəni və tarixi dəyərlərin qorunması ilə formalaşır. Bu siyasət xalqın keçmişinə dərin ehtiramla yanaşır, gələcəyinə isə öz milli dəyərləri üzərində inamla baxır”.

***Ayşən Vəli***




# Azərbaycan kinosu: dünən var idi, bəs bu gün?..

***Azərbaycan kinosu xalqımızın maariflənməsində, estetik zövqünün formalaşmasında, milli və vətənpərvərlik hissinin güclənməsində özünəməxsus rol oynamış, milli-mənəvi dəyərlərimizi və adət-ənənələrimizi yaşatmışdır. Milli kino sənətimizin bu cəhətlərini yüksək qiymətləndirən Ümummilli Lider Heydər Əliyev deyib: "Azərbaycan xalqının bir çox nəsilləri kino sənəti ilə tərbiyələnib, kinonun təsiri altında formalaşıb, inkişaf edib və mədəniyyətə qovuşubdur... Xalqımızın inkişaf yolunda Azərbaycan kinosunun xidmətləri əvəzsizdir". Və 2000-ci il 18 dekabr tarixli Fərman ilə 2 avqust Azərbaycan Kinosu Günü ölkəmizdə kino işçilərinin peşə bayramı elan olunub.***



## Filmlərimiz var idi...

Ki, həqiqətən də vaxtilə öz sözünü deyə, tamaşaçı rəğbətini qazana bilmişdi. İnsanlara gözəl duyğular bəxş etməklə, əxlaqi, milli-mənəvi dəyərlərimizi qorumaqla, xalqımıza məxsus qəhrəmanlıq səhifələrini özündə əks etdirməklə, ailə-məişət mövzularına nümunəvi şəkildə toxunmaqla, Azərbaycan kinosu elə filmlər istehsal etmişdi ki, baxmaqla doymaq olmurdu. Elə indinin özündə də həmin filmlərin hər birinə sevə-sevə tamaşa edirik. Hələ bəzən özümüzə belə sual da veririk ki, bu filmlərdən nə üçün doymaq olmur? Hər dəfə baxanda sanki ilk dəfədir, baxırmışsan kimi gəlir adama.

Bizim "Dədə Qorqud" adlı filmimiz var. Bu qədim xalqın qəhrəmanlıq səhifələri, milli-mənəvi keyfiyyətləri, adət-ənənələri ilə dolu bir filmdir. 1975-ci ildə "Kitabi Dədə Qorqud" dastanının motivləri, yazıçı Anarın eyniadlı povesti əsasında çəkilmişdir. Aradan 50 ilə yaxın dövr keçsə də, bu film öz dəyərini əsla itirmir. Baxdıqca baxılır.

Bizim "Babək" adlı filmimiz var. 1979-cu ildə çəkilən filmdə xalqımızın qəhrəman oğlu, görkəmli sərkərdə və siyasi xadim Babəkin azadlıq hərəkatından bəhs olunur. Aradan 45 ildən artıq zaman keçməsinə baxmayaraq bu filmi hər dəfə böyük şövq və qürurla işləyirik.

Bizim "Yeddi oğul istərəm" adlı filmimiz var. 1970-ci ildə xalq şairi Səməd Vurğunun "Komsomol poeması"nın motivləri əsasında çəkilmiş film Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 50 illiyinə ithaf olunsa da, həmin 50 ildə sovet imperiyasının təsiri altında yaşasaq da, lakin film olaraq çox sanballı və yaddaqalandır. Odur ki, baxmayaraq ki, indi müstəqil ölkədə yaşayırıq, lakin o film bizim üçün yenə eyni dəyərdə qalmaqdadır.

Bizim "Axırıncı aşırım" kimi filmimiz var. 1971-ci ildə ekranlaşdırılmış kino əsərindəki dramatik hadisələr Azərbaycanın dağ kəndlərinin birində sovet hakimiyyəti qurulduğu ilk illərdə baş verir. Bu film də yaşadığımız sovet hakimiyyəti illərini əsas mövzu etsə də, lakin o tarix bizim yaşadığımız tarixdir. Və film o qədər heyrətamiz şəkildə ekranlaşdırılıb ki, bu gün də hər birimiz o filmdən sitat gətiririk. Hər birimiz o filmi illər öncəki maraqla, həvəslə, sevgi ilə izləyirik. Hansı ki, aradan yarım əsrdən artıq zaman keçib.

"Bəxtiyar, "Arşin mal alan", "O olmasın, bu olsun", "Qayınana", "Əhməd haradadır", "Ulduz", "Yenilməz batalyon", "Bizim Cəbiş müəllim" və adlarını çəkmədiyimiz onlarla filmlər var ki, aradan 50 ildən artıq vaxt keçməsinə baxmayaraq bu gün də fəxr etdiyimiz Azərbaycan kino sənətinin nümunələridir. Bəs bu gün?

## Haradasan, Azərbaycan kinosu?..

Bəs belə isə bu gün haradadır Azərbaycan kinosu? Nə üçün bu siyahını davam etdirə bilmirik. Yəni belə sanballı filmlərlə davam etdirə bilmirik...

Diqqət etsəniz, görə bilərsiniz ki, Azərbaycan kinosu vikipediyasında 1898-ci ildən başlayan kino sənətimizin ayrı-ayrı illərdə inkişaf xətti göstərilib. Yəni illər üzrə çəkilən filmlərin siyahısı, aldığı mükafatlar yerləşdirilib. Lakin bu siyahı 2015-ci ildə bitir. Yəni həmin ildən bu yana çəkilən filmlər ya yoxdur, ya da hansısa məsuliyyətsizlik ucbatından burada yer almır. Bu gün Azərbaycan televiziya məkanında yağışdan sonra çoxalan göbələk qədər teleseriallar görmək mümkündür. Hansı kanala baxırsansa, orada bir neçə serialla qarşılaşırsan. Bunların arasında isə təsadüf nəticəsində yaxşı biri ilə qarşılaşmaq mümkündür.

Azərbaycan kino məkanında komediya filmləri daha çox çəkilir. Və qeyd etməliyik ki, həm də çox maraqlı, professional səviyyədə çəkilir. Komediyanın həyatın acı hadisələrini gülüşlə ifadə etməsini, bunun da tamaşaçıya təsir gücünü nəzərə alsaq, əlbəttə komediya filmlərimizə söz yoxdur. Lakin həddindən artıq gülmürükmü? Bəlkə bir qədər də təsirlənməyin, duyğulanmağın, tarixin yaddaşına atılmağın, qədirbilənliyin vaxtıdır...

Komediyadan fərqli olaraq bədii, sənədli, televiziya filmləri haqqında danışmaq bir qədər çətindir. Çünki tamaşaçı hələ də gözləyir. İkinci Vətən müharibəsindən, şəhidlərimizdən, müharibə iştirakçılarından, azad torpaqlarımızdan, bu torpaqların böyük hünər və rəşadətlə geri alınmasından, erməni adlı düşmənin rəzilliyindən, Qarabağın başına gətirdiyi oyunlardan, darmadağın yurdlardan, daşınıb aparılmış sərvətlərdən və Böyük Zəfərdən bəhs edən filmlər gözləyirik. Gözlədikcə də deyirik: haradasan, Azərbaycan kinosu?

## Arxivə atdığımız filmlər

Bəs biz bu gün Azərbaycan kinosunu hansı dərəcədə seyr edirik? Bir qədər də bu barədə danışaq. Çünki filmlər baxıldıqca yaşadılır. Bu gündən sabaha daşına bilir. Gənclərin təfəkkürünü formalaşdırır. Onlarda dünənimizlə bu günümüz arasında körpü yaradır. Lakin yetişməyimizdə, formalaşmağımızda böyük əhəmiyyətə malik olan kinolarımızı illər öncə artıq arxivlərə atmışıq. Heç ölkə telekanalları da əvvəlki illərdəki qədər filmlərimizə yer ayırmır. İndi telekanallarda hind, türk, rus və sair film günləri mövcuddur ki, həmin günlərin məlum saatlarında o filmləri seyr etmək olar.

Azərbaycan kinosundan danışarkən xəyalən ötən illərə gedir insan. O zamanlar yaşadığımız şəhər, qəsəbə və kəndlərdə kinoteatra yollanırdıq, fimlərə baxırdıq. Bizi ya məktəbdən müəllimlərimiz, ya da valideynlərimiz kinoya aparırdı. Bir-birindən maraqlı filmlər izləyirdik. Səhəri gün ədəbiyyat müəllimimiz həmin film haqqında inşa yazmağı da bizə tapşırırdı. Biz də yazırdıq, filmə, filmin ssenarisinə, aktyorlara, hadisələrə münasibət bildirirdik. Bütün bunların əhatəsində böyüyür, dünyagörüşümüzü formalaşdırırdıq.

Bəzən oxuduğumuz əsərlərin ssenarisi əsasında çəkilən filmlərə tamaşa edirdik. Bunlar bizim üçün daha maraqlı olurdu. Sanki kitabdakı hərflərin sözlərə çevrilib yaratdığı qiyabi mənzərələr birdən-birə gözlərimiz önündə əyanileşir, obrazları həyatımıza gətirir və onların yaşadığı talelərlə bizi bir daha tanış edirdi. Bəzən olurdu ki, kinolardan elə təəssüratla ayrılırdıq ki, həftələrlə özümüzə gələ bilmirdik. Hadisələr bizi öz əsarəti ağuşuna alıb haradan haraya aparırdı. Bəzən filmlərdəki talelərdə öz həyatımızı görürdük, onu özümüzə daha yaxın hiss edirdik. Bəzən həyatımızda baş verən bir hadisənin cavabını məhz filmlərdə tapırdıq. Biz doğru hərəkət etməyi, qərar verməyi baxdığımız filmlərdən öyrənirdik. Bəzən, yox həmin filmdəki kimi etsək, daha yaxşı olar, deyib, planlaşdırdığımız addımdan vaz keçir, eynilə baxdığımız filmdəki kimi hərəkət etməklə heç də səhv etmədiyimizi təsdiq edirdik.

Necə ki, oxuduğumuz onlarla, yüzlərlə kitab bizi kamilləşdirir, həyatın sirrinisözünü, düzgün seçimi, düzgün qərar verməyi, yaxşını pisdən ayırmağı, hansı addımın doğru, hansının yanlış olduğunu öyrədirdi, eləcə də baxdığımız onlarla film də həyatımızda eyni funksiyada idi.

Elə ki, 1990-cı illər arxada qaldı, qarşıdakı illərdə həyatımıza yavaş-yavaş internet, smartfon telefonlar daxil oldu, biz də yavaş-yavaş kinoteatrlardan, klublardan uzaqlaşmağa başladıq. Evlərimizə doğru geri çəkildik. Ta o evlərdən çıxıb film izləmək üçün yol getmədik, buna vaxt ayırmadıq. Başladıq internetdən, telefonlardan film izləməyə. Lakin bu, kinoteatrlarda geniş ekranlarda izlədiyimiz filmlər keyfiyyətdə oldumu ? Xeyr, olmadı. Həm də öz kinomuz getdi, yerinə dünyanın hər yerindən olan filmlər gəldi.

*Ardı Səh. 7*

# Azərbaycan kinosu: dünən var idi, bəs bu gün?..





## Əvvəli-Səh-6

### Yeni dünyamızın yeni kinosu

Beləliklə, yeni dünyamız yarandı. Yeni dünyamıza yeni filmlər qədəm qoydu. Teleseriallar yarandı. Aylarla, illərlə bitməyən seriallar. Həmin seriallar artıq neçə-neçə onilliklərdir ki, bizləri özünə bağlayıb. Biz olmuşuq həmin serialların aludəsi, bəzi hallarda isə xəstəsi. Onlarla mövsümə başlayıb, onlarla mövsümü tamamlayırıq. Dikilirik televizorların qarşısına, saatlarla mentalitetimizə, adət-ənənələrimizə, yaşam tərzimizə uyğun olmayan serialları izləmək üçün.

Daha sonra yeni-yeni film proqramları ortaya çıxdı. Başladıq həmin proqramlar vasitəsilə filmlər izləməyə. Baxdıq ki, bu filmlər biz baxdığımız filmlərdən çox fərqlidir. Bu filmlərdə dəhşətlər, vəhşətlər gördük, söyüşlər eşitdik. Bir canlının həyatına qıyıb, əsla narahat olmayan insanları gördük. Həyatımıza, cəmiyyətimizə heç uyğun olmayan mənzərələrlə qarşılaşdıq.

Bir vaxtlar ailəliklə film seyr etdiyimiz təqdirdə, bunun artıq əsla mümkün olmadığını dərk etdik. Nəticədə uşaqları bizimlə birlikdə film seyr etməkdən uzaqlaşdırdıq. Belə olanda isə uşaqlarımız daha dəhşətli filmlər izləməyə başladılar. İnternet klublarında dava-dalaş, vuruşma, ölüm, dəhşət və vəhşət dolu filmlər təqdim olundu övladlarımıza. Uşaqlarımız da həmin filmləri izləmək üçün min bir həvəslə internet klublara yollandılar. Aludəçiyə çevrildilər. Biz də uşaqları evlərimizə yığmaq üçün gedib həmin filmlərin diskini alıb evə gətirdik və gözümüzün qarşısında "baxın",- dedik. Ta demədik ki, bu uşaq nəyə baxır, niyə baxır?..

Yeni dünyamızda əslində nə uşaqlarımız, nə də özümüz yaşadığımız həyata uyğun olmayan filmlərə baxmağa başladıq. Öz ölkəmizin istehsal etdiyi filmlər artıq evlərimizdən, telefonlarımızdan uzaq düşdü. Hə, nə olar, adam tək öz filmlərinə baxmaz ki, xarici filmlərə də baxmaq, oxuduğumuz kitablardakı kimi dünya ölkələri ilə də tanış olmaq gərəkdir. Lakin biz bu gərəklilərdən çox gərəksizlərə qapımızı açdıq. Ayağımız kinoteatrlardan kəsildi. Evimizdə oturub dünyanın bütün ölkələrinin filmlərini izləməyə başladıq. Valideyn bir tərəfdə, uşaq bir tərəfdə... Bir də başımızı qaldırıb ətrafa, dünənə baxanda itirdiklərimizin çox olduğunu gördük. Lakin artıq çox gec idi.

### Kimdir günahkar?..

İndi nümunə üçün gedib məktəblərimizdə bir sorğu keçirsək, sual etsək ki, kim axırıncı dəfə hansı Azərbaycan filmini izləyib, bu suala neçə şagird və hansı şəkildə cavab verəcək, bu, aydındır. Bu gün yetişməkdə olan gənc nəslin əksəriyyəti filmlərimizi seyr etməyib. Adlarını da bilmirlər. Bəzi intellektual yarışmalar var ki, orada filmlərimizdən göstərilən bir parçanın hansı filmə aid olduğunu iştirakçıların heç biri bilmir. Hətta yüksək səviyyədə təhsil alan, yüksək bal toplayan şagirdlər belə. Bu, o deməkdir ki, artıq gənc nəsil filmlərimizdən xəbərsizdir. O qədər gözəl ənənələr, adətlər, mental və ailə dəyərlərini özündə yaşadan filmlərdən çox uzaqdadır.

Bütün bunlar üçün isə onlar deyil, biz günahkarıq. Onların böyükləri- ata-anaları olan bizlər. Çünki biz vaxt ayırıb uşaqlarımızla birlikdə bu filmləri izləməmişik. Bunun əvəzinə tanış olmadığımız adətlər çərçivəsinə uyğun film disklərini alıb uşaqlarımıza verib onların bu filmləri izləməsinə səbəb olmuşuq. Sabahısı gün tərbiyələrində bir problem ortaya çıxanda isə, "bu uşaq gedib kimə oxşadı?", "bu nə üçün belə hərəkət edir?",- deyə onları tənbeh etməyə başlayırıq. Ancaq düşünmək istəmirik ki, övladımıza nə etmişiksə, özümüz etmişik.

Beləliklə, internetdən düzgün yararlana bilməməyimiz, kinoteatrlardan ayağımızı kəsməyimiz, evimizdən filmlərimizi uzaqlaşdırmağımız qarşımızda yeni bir dövr açır. Bu dövrdə itmiş adət-ənənələrimiz, cəmiyyətimizə xas olmayan əlamətlər, uzun illərdən bəri xalqın qoruyub saxladığı dəyərlərdən başqa hər şey görünür. Düşünəndə isə deyə biləcəyimiz tək bir söz var: təəssüf.

### Bəs ikinci günahkar?..

Demirik ki, müasir dövrdə yaxşı filmlərimiz yoxdur. Var. Lakin daha çox olmalıdır. O qədər olmalıdır ki, ölkənin gənci də, yaşlısı da, uşağı da öz zövqünə görə baxmağa film tapa bilsin. Odur ki, ikinci günahkar isə bu gün sanballı filmlər çəkib ortaya qoya bilməyən rejissorlardır.

Biz Böyük Zəfər əldə etdik. Hanı 44 günü özündə əks etdirən filmlər gözləyir. Axı bu gün onların sayı-hesabı olmamalıdır. Bir qərinəyə yaxın dövrü əhatə edən işğal dövrü, qaçqın, köçkün dərdi və bütün bunların sonunda isə Zəfər, şəhidlərimiz, qazilərimiz, Vətən övladları... Bunların hər biri bir filmin mövzusu deyilmi? Biz Zəfərimizdən bəhs edən filmlər istəyirik.

Azərbaycan kinosu vikipediyasında uşaq filmləri bölməsində cəmi 6 uşaq filmi yer alır. "Ağ atlı oğlan"(1995), "Asif, Vasif, Ağasif"(1983), " Bir qalanın sirri"(1959), "Qərib cinlər diyarında"(1977), "Sehrli xalat"( 1964), " Şir evdən getdi"(1977). Vəssalam. Bəs haradadır digər uşaq filmləri? Böyük bir xalqın cəmi 6 uşaq filmi varmı? Axı uşaqlarımız onlar olmadıqca xarici ölkələrdə istehsal olunan, bizə təklif edilən yüzlərlə uşaq və cizgi filminə rəqəmsal platformalara nəzarətimizin yoxluğu səbəbindən baxmalı olur. Bu filmlər isə bizim dəyərlərimizdən, mentalitet və ənənələrimizdən xəbərsizdir. Bir də görürük ki, uşaqlarımız iki qızın, iki oğlanın evlənməsindən bəhs edən filmlərə baxır. Vəhşiliyi, tərbiyəsizliyi, özbaşınalığı özündə ehtiva edən, cəmiyyətimizlə əkslik təşkil edən filmlərə baxır.

Bəs bu mühitdə böyüyən uşaqların gələcəyi necə olacaq? Bax, bu, bizi bu gün düşünməyə vadar etməlidir.

### Gəlin günahlardan arınaq

Günahlardan arınmağın vaxtıdır. Azərbaycan filmlərini arxivlərə göndərən bizlər ilkin olaraq günahdan arınmalıyıq. Qapımızı Azərbaycan filmlərinə açmalıyıq. Övladlarımıza öz filmlərimizə baxmağı tövsiyə etməliyik. Müəyyən vaxt təyin edib onlarla birlikdə yerli filmlər seyr etməliyik.

Kinostudiyaların, rejissorların da günahlardan arınmaq vaxtıdır. Çünki kinomuzda böyük bir boşluq yaranıb. Bu boşluq dolmazsa, böyük tarixə malik olan Azərbaycan kinosunun vəziyyəti necə olar? Azərbaycan Kinosu Günü münasibətilə həm olanlardan, həm də olmayanlardan danışdıq. Olanlar onsuz da bizimdir. Gəlin olmayanların olmasına çalışaq. Sabah gec olar.

Bayramın mübarək, Azərbaycan kinosu! Bayramınız mübarək, kino işçiləri!

***Mətanət Məmmədova***

# TƏXRİBAT

***Bu gün Rusiya bütövlükdə Azərbaycanın üzərinə gəlməkdədir. Günahı özündə axtarmaq, etdikləri təxribatlara görə üzrxahlıq yolları aramaq əvəzinə qərəzlərini sıralaması, həm də bunu "strateji tərəfdaşı" olan qonşusuna qarşı başlatması Rusiyanı idarə edənlərin apatiya xəstəliyinə tutulduqlarına bir işarədir.***




## *Yaxud, Rusiyanın İTAR-TASS agentliyi Azərbaycana qarşı qərəzli mövqeyinin arxasında nə dayanır?*

Dünya çalxalanır, bu, bəllidir. Yeni dünya nizamının formalaşmasına hazırlıq gedir, bu da aydındır. Amma yeni nizam, parçalanma deyil, sadəcə konfiqurasiyaların dəyişməsidir, bu zaman yeni dostlarla yanaşı düşmənlər də qazana bilərsən. Rusiyanın addımlarında isə dostları düşmənə çevirmək sindromu yaşanır. Səbəb də tam olaraq bəlli deyil. İmperiyaların dağılma ərəfəsində nələr yaşadığını, hansı hərəkətlər etdiyini nəzəri olaraq gözümüzün qarşısına gətirsək, Kremlin qeyri-şüuri tərzini anlaya bilərik. Dağılma ərəfəsində bütün imperiyalar quduzlaşır, hamıya cırmaq atır, dişləyir.2020-ci ilin 10 noyabrında Vətən müharibəsinin bitməsi ilə eyni vaxtda Rusiya ordusu "sülhməramlı" adı altında Qarabağa soxuldu. Sayları 1960 nəfər olsalar da, sonradan bu rəqəm onların ailə üzvləri, fövqəladə hallar nazirliyinin əməkdaşları, işıqçılar, santexniklər, rəssamlar, heykəltaraşlar, müəllim və həkimlərin hesabına artırıldı. İş o yerə çatdı ki, hətta Xankəndi şəhərində "rus icması" da yaradıldı. Bunun ardınca növbəti təxribatlar sıralandı, Rusiyanın Müdafiə Nazirliyinin rəsmi saytında Azərbaycan şəhərlərinin adı təhrif olunmağa, ermənilərə xas olan adlarla göstərilməyə başlandı. Azərbaycan tərəfinin dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq Rusiyanın aidiyyəti qurumu əməllərini davam etdirməkdə israrlı olduğunu göstərdi.Bu günlərdə isə Rusiya mətbuatında, daha doğrusu TASS agentliyində qərəzli bir məlumat tirajlanıb. Xankəndidə yerləşən erməniəsilli rusiyalı rəssam İvan (Ovanes) Ayvazovskinin abidəsi sökülüb. Bu barədə ilk olaraq məlumat yayan erməni mediası abidəni az qala qədim tarixi abidə kimi təqdim etməyə çalışıb. Halbuki, Ayvazovskinin büstü 2021-ci ilin dekabrında separatçı rejimin nümayəndələri və Rusiya sülhməramlılarının təşəbbüsü ilə "Rusiya Şöhrət Xiyabanı" adlı qanunsuz layihə çərçivəsində Xankəndidə quraşdırılıb. Diqqət edin, Azərbaycanın suveren ərazisində 5 il müddətinə yerləşdirilmiş sülhməramlılar mandatına zidd olan addımlar atır, "Rusiya Şöhrət Xiyabanı" inşa edir, Saxarovun heykəlini uzaq Moskvadan sürüyə-sürüyə Xankəndinə gətirir, onun adını daşıyan məktəbin həyətində ucaldır və digər saysız-hesabsız qanunsuzluqlara imza atır, üstəlik də Qarabağla əlaqəsi olmayan Ayvazovskinin heykəlini dikəldir.

Amma unudurdu ki, bütün bunların mütləq bir sonu olacaq və oldu da. Qarabağa yad olan bütün izlər silinməli idi və bu gün artıq sonuncular da silinir.Ayvazovskinin abidəsinin sökülməsi ilə bağlı Rusiyanın aparıcı media qurumlarından sayılan TASS da daxil olmaqla, RİA Novosti, "Kommersant", RBK, "İzvestiya" "Gazeta.ru" kimi nüfuzlu KİV-lərdə yazılan məqalələrdə diqqətçəkən bir məqam var, onlar bu hadisə barədə məlumat verərkən Azərbaycanın ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərini açıq şəkildə pozan ifadələrdən istifadə ediblər. Xəbərlərdə Xankəndi şəhəri "Stepanakert" adlandırılıb, eləcə də Azərbaycanın artıq hüquqi və siyasi baxımdan ləğv edilmiş "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidinə istinadlar yer alıb. Bu cür terminologiya təkcə jurnalistik etikaya deyil, eyni zamanda beynəlxalq hüquqa və Moskva Bəyannaməsi kimi ikitərəfli razılaşmalara ziddir.Bu təsadüfi sayıla bilməz, çünki bu media orqanları dövlətə məxsusdur və Kremlə yaxınlıqları ilə seçilirlər. Bu kimi halların əslində qarşılıqlı hörmət və diplomatik etiket prinsiplərinə uyğun həll edilməsi gözlənildiyi halda, məsələ informasiya şousuna çevrilib, süni gərginlik yaradıb. İki ölkə arasındakı münasibətlərə ciddi xələl gətirib. Təbii ki, əgər Azərbaycan oxşar addımları atsa, bunun, Rusiyada ciddi narahatlıq doğuracağına şübhə yoxdur. Əlbəttə, informasiya müstəvisində aparılan təxribatların qarşısı alınmalı, qarşılıqlı hörmət prinsipləri qorunmalıdır.Ermənistan silahlı qüvvələri tərəfindən Qarabağın və ətrafındakı 7 rayonun işğalı zamanı ermənilər daşı-daş üstə qoymadılar, min illərə söykənən tariximizi silib atmağa, özlərinin qondarma, saxta keşmişlərini yaratmağa çalışdılar. Təəssüf ki, bunu bacardılar, amma tam olaraq yox. Çünki, bayağı, qondarma, saxta abidələr, çürümüş mürəkkəblə yazılan tarixlər tez silinər. 44 günlük müharibədən sonra erməni separatizminə vurulan son mismar həm də sabun köpüyü ilə yazılmış tarixi bir həmlə ilə havaya uçurdu. Rusiya sülhməramlıları ermənilərin Qarabağda qalmasını cəmi 13 ay təmin edə bildilər.

Haqq, ədalət öz yerini tutdu, bu torpaqlar əsl sahiblərinə qismət oldu. Qondarma tarixlər, bu tarixi isbat edən heykəllər, qondarma abidələr də, TASS-ın yazdığı kimi, "vandalizm"ə məruz qalmadı, daha dəqiq ifadə etsək, aid olmadığı yerdən götürüldü. Qeyd edək ki, sözügedən heykəl 2021-ci ilin dekabrında, Rusiya sülhməramlılarının bölgədə olduğu dövrdə və Azərbaycanın razılığı olmadan ucaldılıb.TASS-ın ikinci bir təxribatı da tarixi Xankəndi şəhərinin "Stepanakert" adlandırmasıdır. Bu, Azərbaycanın ərazi bütövlüyünə şübhə doğuran açıq siyasi mesajdır, suverenliyimizə təhdiddir. Qarabağ artıq Azərbaycanın tam nəzarətindədir, bu şəhərdən erməni izini silməsək belə ruhən azərbaycanlılara məxsusdur, Xanın inşa etdiyi şəhərdir, erməniyə zərrə qədər də aidiyyəti olmayan bir yurd yeridir.

***V.VƏLİYEV***




# "Dilə münasibətimiz həm də Vətənə, dövlətə, tarixə və özümüzə münasibətimizdir"



## MÜNASİBƏT

*"Bildiyiniz kimi, dünən - 31 iyul 2025-ci il tarixində Prezident cənab İlham Əliyev tərəfindən Azərbaycan dilinin qorunması və təbliği ilə bağlı fərman imzalanmışdır. Ana dilimizin yaşadılması və yüksək səviyyədə təşviqinə yönəlmiş bu fərman eyni zamanda milli strateji bir sənəddir. Çünki bu gün dilimizin qorunması milli təhlükəsizlik, ideoloji müstəqillik və beynəlxalq mövqemiz baxımından son dərəcə mühüm əhəmiyyətə malikdir. Bu fərman bir daha göstərdi ki, Azərbaycan dövlətinin dil siyasəti dəqiq, ardıcıl və məqsədyönlü şəkildə formalaşmışdır". Bu sözləri S A-ya Milli Məclisin deputatı, Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva 1 avqust "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" ilə bağlı açıqlamasında deyib.*

"Məsələn, mən fərmanda Azərbaycan ədəbiyyatının beynəlxalq aləmdə təbliğinə diqqəti xüsusi vurğulamaq istərdim. Bu, çox böyük mədəni-siyasi potensiala malik məsələdir. Uzun illər diplomatik fəaliyyət göstərdiyim üçün, deyə bilərəm ki, ədəbiyyat, sözün əsl mənasında, mədəni diplomatiyanın önəmli vasitələrindəndir. Folklor və ədəbiyyat xalqın keçmişini, düşüncə tərzini, estetik dünyasını olduqca təsirli şəkildə izah edə bilir. Biz Füzulini, Nizamini, Sabiri, Mirzə Cəlili, eləcə də neçə-neçə klassiklərimizi, mütəfəkkirlərimizi, şairlərimizi, yazıçılarımızı xarici dillərə çevirdikcə, Azərbaycanı dünyaya təqdim edirik. Və bilirsiz, bu, sadəcə mədəni tanıtım deyil – bu, Azərbaycanın dünyada ideoloji mövqeyini gücləndirən prosesdir".

Millət vəkili Sənəddə həmçinin, Dövlət Dil Komissiyasının yeni tərkibdə qurulmasının nəzərdə tutulmasından bəhs edərək, bildirib: "Düşünürəm ki, bizim dil komissiyamız müasir dünyanın reallıqlarına uyğunlaşmalıdır. Təkcə dilçi alimlər yox, həm də media mütəxəssisləri, texnoloqlar, təhsil ekspertləri burada təmsil olunmalıdır. Əgər biz dilin gələcəyindən danışırıqsa, o zaman bu gələcəyi formalaşdıracaq platformalarda – yəni internetdə, süni intellektdə, təhsil mühitində ana dilimizi necə inkişaf etdirəcəyimizi düşünməliyik. Bu, yalnız nəzarət xarakteri daşımır – bu, kreativ təşəbbüslərlə gələcəyə baxışdır. Düşünün ki, biz dilimizi daha da zənginləşdirməliyik – kökləri dərin, amma eyni zamanda budaqları gələcəyə uzanan şəkildə. Biz unutmamalıyıq ki, dil kitablar, qəzetlər, müxtəlif yazılı mənbələr ilə yanaşı, sosial mediada, televiziyada, məktəbdə, küçə reklamlarındadır. Bu gün müşahidə edirik ki, sosial şəbəkələr mühitində dil yalnız informasiyanın ötürülməsi vasitəsinə çevrilib. Halbuki dil bizim milli mədəni kimliyimizin kodudur. Yeni fərman bu məsələyə dövlət səviyyəsində müdaxilə imkanı yaradır".

Azərbaycan xalqının əsrlər boyunca öz dilinə sahib çıxması və onu daha da zənginləşdirməsindən bəhs edən Günay Əfəndiyeva vurğulayıb: "Ana dili həm yazılı, həm də şifahi ədəbiyyatımızın mayasıdır; ana laylasından tutmuş, beynəlxalq tribunalara qədər hər bir sahədə xalqımızın milli ruhunu ifadə edir. Tariximizin elə səhifələri var ki, orada dilimiz təkcə ifadə vasitəsi deyil, həm də mübarizə silahına çevrilmişdir. Azərbaycan dili dəfələrlə bu mübarizənin mərkəzində olmuşdur. Xüsusilə sovet totalitarizminin sərt illərində – 1930-cu illərdən başlayaraq – milli kimliyimizin daşıyıcısı olan ana dilimiz sıxışdırmalara, təzyiqlərə məruz qaldı. Bu siyasət yalnız rəsmi dairələrdə deyil, ədəbiyyat və mədəniyyət sahəsində də acı nəticələr verdi. Dilini sevən, onu yaşadan söz adamları – Hüseyn Cavid, Mikayıl Müşfiq, Yusif Vəzir Çəmənzəminli, Əhməd Cavad və başqaları – milli düşüncəyə sədaqətlərinə görə repressiyalara məruz qaldılar, həyatları yarımçıq sonlandı. Lakin onların yazdıqları, söylədikləri, susdurulmağa çalışılan o doğma söz, o doğma dil – zamanın sınaqlarından güclü çıxdı. Bu gün Azərbaycan dili dövlət dilidir, azaddır, inkişaf yolundadırsa, bu həm də həyatlarını fəda etmiş həmin o söz adamlarının müqəddəs irsi sayəsindədir".

Deputat bildirib ki, digər tərəfdən, dil siyasəti rus, eləcə də Sovet imperiyası tərəfindən Azərbaycan ilə yanaşı, ümumilikdə türk xalqlarına qarşı məqsədyönlü şəkildə həyata keçirilmişdir: "Sovet ideoloqları yaxşı bilirdilər ki, dil milli kimliyin formalaşmasında açar rolu oynayan bir amildir. Və onlar bu açarı türk xalqlarının bir-birinə açılan qapılarını bağlamaq üçün istifadə etdilər – qardaş dilləri yadlaşdırmaq, ortaq yaddaşı susdurmaq üçün. Onlar o açarı türk birliyinə, bizim ümumi gələcəyimizə aparan yolları bağlamaq üçün istifadə etdilər. Ümumtürk mədəni inteqrasiyasını onilliklərlə geriyə atdılar.

### Amma nəticəsi nə oldu?

Bir baxın, indiki Türk Dünyası mənzərəsinə. Artıq tamamilə başqa reallıq yaranıb və davam edir. Müstəqil türk dövlətləri arasında ortaq əlifbaya keçid təşəbbüsləri, Türk Dövlətləri Təşkilatı çərçivəsində dil və mədəniyyət sahəsində əməkdaşlıqlar, dilin milli birləşdirici vasitə kimi qəbul olunması – bunlar hamısı günümüzün gerçəkliyidir. Və böyük qürurla deyirik ki, Azərbaycan bu prosesin öncüllərindəndir".

Millət vəkili bildirib ki, Sovet dövründə, yəni 1970-80-ci illərdə, SSRİ-də ana dili məsələsini açıq-açıq müdafiə etmək böyük siyasi riskə getmək idi. Amma Ulu Öndər Heydər Əliyev bunu etdi. 1978-ci ildə məhz Ulu Öndərin qətiyyəti ilə bu maddə Konstitusiyaya salındı – bu, bir SSRİ respublikası üçün böyük cəsarətin nəticəsi idi.

Günay Əfəndiyeva latın qrafikalı Azərbaycan əlifbasına keçidin XX əsrin sonunda milli müstəqilliyimizi möhkəmləndirən mühüm addımlardan biri kimi dəyərləndirib. O bildirib ki, bu, sovet dönəminin ideoloji təsirlərindən azad olmaq idi və müasir informasiya cəmiyyətinə inteqrasiyanı təmin etdi. Deputat 9 avqust 2001-ci il tarixində Ümummilli lider Heydər Əliyevin fərmanı ilə 1 avqust "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü"nün elan olunmasından bəhs edib. O, vurğulayıb ki, Ulu Öndərin bu qərarı dil siyasətinin müstəqil Azərbaycan dövlətinin strateji prioritetlərindən olduğunu sübut etdi. Millət vəkili bildirib ki, dilimizin mühafizəsi sadəcə filoloqlarımızın, dilçilərimizin və ya müəllimlərimizin deyil, bütövlükdə cəmiyyətimizin, bizim hər birimizin vəzifəsidir.

"Dilə münasibətimiz həm də Vətənə, dövlətə, tarixə və özümüzə münasibətimizdir. Buna görə də ana dilimizi qorumaq üçün ilk növbədə ailədən başlayaraq təhsildə, informasiya mühitində, ictimai idarətmədə, rəqəmsal platformalarda onun düzgün, səlis və zəngin şəkildə istifadəsində hər birimiz məsuliyyətlə, fəal şəkildə iştirak etməliyik", - deyə Günay Əfəndiyeva vurğulayıb.

# "Əsas şərt Azərbaycan və Ermənistan arasında qarşılıqlı etimadın bərpa olunmasıdır"



***"Fransa Milli Assambleyasında qəbul olunan qətnamədə beynəlxalq ictimaiyyətə ünvanlanan və "erməni əhalisinin Artsaxa qayıtmaq hüququ" ilə bağlı irəli sürülən çağırış bölgədə sülh və sabitliyə ciddi şəkildə mənfi təsir göstərə bilər. Bu məsələyə beynəlxalq hüquq, regional reallıqlar və sülh prosesinin gedişi kontekstində yanaşmaq vacibdir". Bu sözləri S A-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib.***

Onun sözlərinə görə, bu çağırış beynəlxalq hüququn əsas prinsiplərinə ziddir. Qarabağ və ətraf ərazilər Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilindədir və ölkəmiz bu ərazilərdə tam suverenliyini bərpa edib: "Həmin ərazilərə kimlərin, hansı şərtlərlə qayıdacağı barədə qərar yalnız Azərbaycan dövlətinə məxsusdur. Xarici qüvvələrin bu məsələni siyasiləşdirməsi və birtərəfli şəkildə şərtləndirməsi Azərbaycanın daxili işlərinə açıq müdaxilədir və bu, bölgədə yeni gərginlik mənbələri yarada bilər. "Erməni əhalisinin Artsaxa qayıtmaq hüququ" ifadəsi bölgədə separatçı rejimin yenidən bərpası üçün zəmin yaratmaq niyyəti daşıyır. Unutmaq olmaz ki, uzun illər bölgədə qeyri-qanuni "Dağlıq Qarabağ rejimi" fəaliyyət göstərib və bu rejim regionda sülhün qarşısını alan başlıca faktorlardan biri olub. İndi həmin ideyanın "qaçqınların geri qayıtması" adı altında yenidən gündəmə gətirilməsi separatizmin canlanmasına yol aça bilər ki, bu da bölgə üçün çox təhlükəlidir. Bölgədə davamlı sülhün təmin olunması üçün əsas şərt Azərbaycan və Ermənistan arasında qarşılıqlı etimadın bərpa olunmasıdır.



Fransanın Milli Assambleyasının qəbul etdiyi kimi birtərəfli yanaşmalar isə əksinə, tərəflər arasındakı etimadsızlığı daha da dərinləşdirir. Bu cür bəyanatlar Ermənistan cəmiyyətində yanlış gözləntilər formalaşdırır, revanşist qüvvələrə əlavə stimul verir və nəticə etibarilə sülh gündəliyinə zərbə vurur. Həmin çağırış bölgədə artıq formalaşmaqda olan yeni təhlükəsizlik və əməkdaşlıq mühitinə də ziddir. Hazırda Azərbaycan öz ərazilərində bərpa-quruculuq işləri aparır, minlərlə azərbaycanlı köçkün evlərinə qayıdır. Bu proses davam etdiyi bir vaxtda beynəlxalq ictimaiyyət yalnız balanslı və tərəfsiz mövqe sərgiləyərək prosesə dəstək verməlidir. Əks halda, birtərəfli çağırışlar bölgədə qarşılıqlı ittihamları gücləndirir, etimad mühitini dağıdır və yeni qarşıdurma risklərini artırır.

Əslində, beynəlxalq ictimaiyyət bölgədə sabitliyi və sülhü təmin etmək istəyirsə, Ermənistana revanşist ritorikadan və əsassız ərazi iddialarından imtina etməsi üçün təzyiq göstərməli, onu Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmət etməyə çağırmalıdır. Hər bir əhalinin öz doğma torpaqlarına qayıtmaq hüququ olsa da, bu, yalnız dövlətlərin suverenliyi çərçivəsində və qarşılıqlı razılaşma əsasında həyata keçirilə bilər. Fransanın Milli Assambleyasında qəbul olunan bu qətnamə, əslində, sülh prosesini irəlilətmək əvəzinə, onu daha da mürəkkəbləşdirən addımdır. Bu kimi qərarlar bölgədə yeni qarşıdurmaların yaranmasına zəmin yaradır və real sülhə xidmət etmir".

***Ziya Hikmətoğlu***

# 51-ci zona və digər sirlər haqqında məxfi sənədlər açıqlandı

## ABŞ Milli Təhlükəsizlik Arxivində nələr var?

1985-ci ildə yaradılan müstəqil Milli Təhlükəsizlik Arxivi hökumət məlumatlarının açıqlığı uğrunda mübarizə aparan ən nüfuzlu təşkilatlardan birinə çevrilib. Dövlət sirrinin artmasından narahat olan jurnalistlər və alimlər tərəfindən yaradılmış arxiv əsl demokratiya və şəffaflığın qalasına çevrilib. Bu, sadəcə məxfilikdən çıxarılan sənədlərin anbarı deyil- bu, akademik qurum, ictimai maraqlara uyğun hüquqi təşəbbüs və dərin jurnalist araşdırmaları üçün platformadır. Arxiv öz şöhrətini İnformasiya Azadlığı Aktından (FOIA) əvvəllər yalnız dar bir dairə üçün mövcud olan məlumatlara daxil olmaq üçün əsas vasitə kimi istifadə etməsi sayəsində qazanmışdır. Hər sorğu, ABŞ liderlərinin onilliklər ərzində üzləşdiyi beynəlxalq münasibətlərin mürəkkəb tarixini, dövlət səhv hesablamalarını və mənəvi dilemmaları anlamaq üçün bir addımdır.



### Siyasi zarafatlar: Karter və Kissincerin əlyazma qeydləri

Arxivin əhəmiyyətinin ən bariz nümunələrindən biri də Cimmi Karterin milli təhlükəsizlik müşaviri Zbiqnev Bjezinskinin təkliflərinə reaksiyasını əks etdirən sənədlərdir.




Sonuncu xarici siyasətə daha manipulyativ yanaşma təklif etdikdə, Karter memorandumun kənarlarında kəskin şərhlər etdi: "Yalan deyirsən?" və "Vaxtınızı boşa keçirəcəksiniz." Bu kostik ifadələr təkcə prezidentin şəxsi mövqeyini deyil, həm də prezident etikasının incə cizgilərini ortaya qoyur. Türkiyə ilə danışıqlar zamanı Henri Kissincerin zarafatı da eyni dərəcədə rəngarəng idi: "Əgər bu qanunsuzdursa, biz bunu dərhal edirik. Əgər konstitusiyaya ziddirsə, bir az daha uzanar".

FOIA qüvvəyə mindikdən sonra o, indi belə zarafat etməkdən belə qorxduğunu etiraf etdi. Bu sözlər onu göstərir ki, hətta soyuq müharibə dövründə də yüksək vəzifəli məmurlar ictimai nəzarət nəfəsini hiss ediblər.

### 51-ci zona, İraq və nüvə təhlükəsi: Məxfilikdən çıxarılan miflər və səhv hesablamalar

Arxiv təkcə maraqları qeyd etmir, həm də davamlı mifləri dağıtmağa kömək edir. Məsələn, 51-ci zona ilə bağlı məlumatların dərci onun məxfiliyinin əsl motivlərini– casus təyyarələrin prototiplərinin gizlədilməsini üzə çıxardı. Nəşrə maraq dalğası o qədər güclü idi ki, Arxiv serverlərinin müvəqqəti bağlanmasına səbəb oldu.

İraqın işğalı ilə bağlı sənədlərə də böyük diqqət yetirilib. Məxfilikdən çıxarılan planlara görə, Corc Buş administrasiyası ABŞ əsgərlərinin gül-çiçəklə qarşılanacağını və bir neçə il ərzində bölgəni tərk edəcəyini gözləyirdi. Lakin reallıq faciəvi şəkildə fərqli oldu. Arxiv şişirdilmiş gözləntilər və təhrif edilmiş proqnozlar mühitində fəlakətli qərarların necə doğulduğunu sübut etdi.

Aspirantlar atom bombasını necə hazırladı və yayılmama siyasətini dəyişdirdi

Ən narahatedici və eyni zamanda ifşaedici sənədlərdən biri də "N Ölkədə Eksperiment" layihəsinin hesabatı oldu. Bu eksperimentin bir hissəsi olaraq, yalnız açıq mənbələrdən istifadə edərək, aspirantlar 3 il ərzində nüvə bombası üçün işçi dizayn hazırlamağı bacardılar. Eksperimentin nəticələri ABŞ-ın nüvə təhlükəsizliyi məsələlərinə yanaşmasını dəyişdi- aydın oldu ki, bilik və fizikanı məhdudlaşdırmaq olmaz, yalnız parçalanan material nəzarətə tabedir.

MARAQLI FAKTLAR

### Alkoqol və casusluq: CIA diplomatiya və əyləncə üçün agentlər hazırladı

Arxivdəki ən təəccüblü tapıntılar arasında MKİ-nin "Alkoqol: Alkoqolun Sosial və Biznes Məqsədləri üçün İstifadəsinə Praktik Baxış" adlı 21 səhifəlik sənədi olub. Rəhbərlik içki içməzdən əvvəl əlüzyuyanın aşağısına bir az tökərək, kibritlə yandıraraq yoxlamaq kimi tövsiyələri ehtiva edirdi. Yumor kəşfiyyat ictimaiyyətinin ciddi narahatlığını gizlədir: MKULTRA dövründə CIA özü psixotrop maddələrlə təcrübə aparmışdı və indi düşmənlərinin onların hərəkətlərini təkrarlayacağından qorxurdu.

Milli Təhlükəsizlik Arxivi təkcə tarixi xəzinə deyil, həm də güclü maarifləndirici vasitədir. Rəqəmsal arxiv (DNSA) universitet proqramlarında fəal şəkildə istifadə olunur, tələbələrə qərar qəbuletmə mexanizmini, siyasi səhv hesablamaların nəticələrini və mülki nəzarətin əhəmiyyətini anlamağa kömək edir. Arxivə abunə olmaq unikal materiallara çıxışı təmin edir və məlumatın açıqlanması və açıq cəmiyyətin qorunması üçün gələcək səyləri dəstəkləyir.

İnformasiya Azadlığı Aktı (FOIA) Amerika Birləşmiş Ştatları hökumətinin məlumat və sənədlərinin tam və ya qismən buraxılmasına imkan verən məlumat azadlığı haqqında federal qanundur.

MKULTRA layihəsi (həmçinin MK-ULTRA kimi tanınır) şüurun manipulyasiya vasitələrini tapmağa və öyrənməyə, məsələn, agentləri işə götürməyə və ya sorğular zamanı, xüsusən də psixotrop kimyəvi maddələrdən istifadə etməklə (insan şüuruna təsir edən) məlumat əldə etməyə yönəlmiş gizli Amerika CIA proqramının kod adıdır.

*Müəllif - İqor Bukker*
*Tərcümə - Elçin Bayramlı*
*Mənbə- Pravda.Ru*

---

# "Baş verən meşə yanğınlarının əsas səbəbi ehtiyatsızlıqdır"

## EKSPERT VƏ QURUMDAN AÇIQLAMA



***"Son 5 ildə Avstraliyada baş verən meşə yanğınlarında 18 milyon hektardan çox meşə yanıb. 3 milyarddan çox heyvanın öldüyü və ya yanğından təsirləndiyi bildirilir. Kanadada meşə yanğınlarında 17 milyon hektardan çox meşə sahəsi yanıb. Amazon meşələri yanğınlarında 1 milyon hektardan çox meşə sahəsi məhv olub. Ərazisinin təqribən 27 %-nin meşələrlə əhatə olunduğu Türkiyədə bir həftədən çoxdur meşə yanğınları davam edir.***

Ötən il baş verən və təqribən iki həftə boyunca davam edən analoji yanğınlarda minlərlə hektar meşəlik ərazi yanaraq külə dönmüşdü. Azərbaycan da belə fəlakətlərdən sığortalanmayıb. Ölkəmizdə yanğınlar daha çox dağ meşələrində baş verir. Çünki respublikamızın coğrafi ərazisinin meşə fonduna aid olan hissəsinin 95 %-i dağlıq ərazilərdə yerləşir". Bunu S A-ya açıqlamasında "Ekoloq-2010" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Səlim Balayev deyib.

Həmçinin Balayev, min hektarlarla meşə ərazisinin yanğından zərər gördüyünü bildirir: "Azərbaycanda baş verən meşə yanğınlarının əsas səbəbi demək olar ki, ehtiyatsızlıqdır. Meşədə kor-koranə tonqal qalanması, gedərkən qalan ocağın söndürülməməsi, siqaret kötüklərinin söndürülmədən yerə atılması, uşaqların meşədə odla oynaması və s. meşə yanğınlarına səbəb olur. Bundan başqa bəzən meşələrə piknik üçün gedənlər şüşə qırıntılarını da elə meşədə buraxırlar. Bəzən isti havalarda günəş şüaları şüşə qırıntıları üzərində əks olunur və bu zaman yaranan qığılcım yanğına səbəb olur. Bununla yanaşı əkin sahələrinin, yaşayış məntəqələrinin meşə sahələrinə yaxın olması da yanğınlara səbəb olur. QHT təmsilçisi olaraq, bölgələrə səfərlərimizdə, vətəndaş, eləcə də fermerlərlə görüşlərimizdə odla ehtiyatlı davranış, meşə yanğınlarının qarşısının alınması barədə söhbətlər aparırıq".

Məsələ ilə bağlı Fövqəladə Hallar Nazirliyinin Mətbuat Xidməti bəyan edib ki, yanğınların qarşısını almaq üçün cari ilin ötən dövründə 43.590-dan artıq obyektdə yanğın-texniki müayinələr keçirmiş, aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üçün obyekt rəhbərlərinə 307.250-dən artıq tələbi özündə əks etdirən "Tələbnamə" məktubları verilmişdir: "Verilmiş tələblərdən 55.010-dan çoxunun icrasına nail olunmuşdur. Müayinələr zamanı qanun pozuntularının aşkar edilməsi ilə əlaqədar yanğın nəzarəti üzrə dövlət inspektorları tərəfindən obyektlərin cavabdeh şəxsləri barəsində inzibati xəta haqqında protokollar tərtib olunmaqla pozuntuların aradan qaldırılması məqsədilə tələbnamələr təqdim olunur. Bəzi hallarda qanun pozuntularının insanların həyat və sağlamlığına, o cümlədən dövlətin əmlak maraqlarını birbaşa təhlükə yaratdığı müəyyən olunur ki, bu zaman həmin obyektlərin fəaliyyətinin məhdudlaşdırılması barədə qərarlar da qəbul edilir. Eyni zamanda əhali arasında mütamadi olaraq yanğına qarşı maarifləndirmə tədbirləri həyata keçirilir. Bu tədbirlərin nəticəsində bu ilin ötən dövründə 50.000-dən artıq vətəndaş, 58.130-dan çox fəhlə və qulluqçu yanğın təhlükəsizliyi sahəsində təlimatlandırılmışdır".

Xidmət rəsmisi onu da bildirib ki, cari ilin müvafiq dövrü ərzində 869 yanğın hadisəsi qeydə alınmışdır ki:"Bu yanğınların 585-i yaşayış sektorunda, 211-i nəqliyyatda, 21-i açıq sahələrdə, 3-ü meşə sahələrində, 56 ədəd sosial məişət və mədəniyyət sektorunda, 21 ədədi isə istehsalat obyektlərində baş vermişdir. Aparılmış geniş miqyaslı maarifləndirmə tədbirləri nəticəsində adı çəkilən bütün sahələrdəki yanğınların sayı ötən ilin müvafiq dövrünə nisbətən az olmuşdur".

*Fatimə Əliyeva*

# Tarixin həqiqətləri Azərbaycan kinosunda




XIX əsrin ən maraqlı kəşflərindən olan kino bəşəriyyətin diqqət mərkəzində oldu. Hərəkətli təsvirlərdən istifadə etməklə hekayələri, fikirləri, hissləri, gözəlliyi və müxtəlif düşüncələri insanlara çatdıran bu vizual sənətdə həyatın üzü, tarixin həqiqəti əksini tapmış oldu. Bir əsrdən artıq yol gələn Azərbaycan kinosu bizə tarixi keçmişimizdən Dədə Qorqudumuzdan, Koroğlumuzdan, Babəkimizdən, Mehdi Hüseynzadəmizdən, eləcə də neftimizdən, inkişafımızdan, tarixi şəxsiyyətlərimizdən soraq verərək tarixi həqiqətlərlə bizləri üz-üzə qoyur. Ötən illərin hər daşından, izindən bizləri xəbərdar edən Azərbaycan kinosu. Bizləri həm güldürən, həm düşündürən, həm də mənəvi sarsıntılar yaşatdıran, kimliyimizi, qəhrəmanlığımızı, igidliyimizi, mübarizliyimizi, vətənpərvərliyimizi təqdim edən Azərbaycan kinosu. Bu filmlərdə ideal şəxsləri, ali dəyərləri görməyimizlə yanaşı, cəmiyyətin neqativ halları ilə də üz-üzə gəlirik. Ziddiyyətli dünyanın ziddiyyət kəsb edən məqamları ilə tanış oluruq. Neçə əsrlik tariximiz vərəqlənir, bu filmlərdə. O filmlərlə böyümüşük, ən yüksək dəyərlərin əxz olunmasında bizlərə təsirsiz ötüşməyib və hər bir filmdən bir iz salınıb dünyamıza. Artıq neçə illərdir ki, bu filmləri ərsəyə gətirən kinematoqrafçıların peşə bayramını qeyd edirik. Azərbaycanın müstəqillik əldə etməsi ilə kino işçilərinin də peşə bayramı 27 avqust tarixində deyil, məhz 2 avqust tarixdə qeyd olunmağa başlanıldı. Ümummilli Lider Heydər Əliyevin Sərəncamı əsasında, 2 Avqust Milli Kino Günü elan olundur.

### 1898-Cİ İLİN 2 AVQUST TARİXİ

Azərbaycan kinosunun yaranma tarixinə nəzər salsaq görərik ki, Azərbaycan kino sənətinin tarixi 1898-ci il avqustun 2-dən başlayır. İlk filmlər fotoqraf və nasir A.M.Mişon tərəfindən çəkilmiş xronika süjetləri ”Bibiheybətdə neft fontanı yanğını”, ”Balaxanıda neft fontanı”, ”Şəhər bağında xalq gəzintisi”, ”Qafqaz rəqsi” və bir bədii kinosüjetdən - ”İlişdin”dən ibarətdir. 1915-ci ildə Qafqazda Pirone qardaşlarının açdığı səhmdar cəmiyyətləri tərəfindən Bakı, Tiflis və İrəvan şəhərlərində prokat kontorları yaradılmışdır. 1915-ci ildə adıçəkilən cəmiyyət neft sənayeçilərinin pulu ilə M.Musabəyovun ”Neft və milyonlar səltənətində” romanı əsasında eyniadlı ilk Azərbaycan bədii filminin çəkilişinə başladı. Təbiət mənzərələri Bakıda və ətraf kəndlərdə, pavilyonla bağlı səhnələr isə, Tiflisdə çəkildi. Filmdə Lütfəli bəy rolunu H.Ərəblinski oynamışdır. Tarixi materiallar əsasında deyə bilərik ki, 1923-cü ildə Azərbaycan Foto-Kino İdarəsi (AFKİ) təsis olundu. AFKİ ayrı-ayrı sahibkarların foto, kinoteatr və prokat kontorların milliləşdirilməsi və birləşdirilməsi tədbirlərini həyata keçirirdi. AFKİ sonralar ”Azdövlətkino” (1926-1930), ”Azərkino” (1930-1933), ”Azfilm” (1933), ”Azdövlətsənayesi” (1934), ”Azərfilm” (1935-1940), ”Bakı kinostudiyası” (1941-1959) kimi adlar daşımışdır, 1961-ci ildən isə C.Cabbarlı adına ”Azərbaycanfilm” kinostudiyası adlanır. XX əsrin 20-ci illərində Bakıda yerli operatorlar və xarici kino şirkətlərinin nümayəndələri tərəfindən şəhərin həyatından və neft mədənlərindən bəhs edən kinoxronikalar və sənədli filmlər çəkilirdi. 20-ci illərdə Azərbaycan kinosunda tarixi-sənədli filmlərlə yanaşı, tamaşaçıları gənc respublikanın təsərrüfat və mədəni həyatındakı nailiyyətləri ilə tanış edən ”Azərbaycan ekranı” kinojurnalı buraxılmağa başlandı.

### ZAMANIN TƏLƏBİ ƏSAS MEYAR OLDU

Beləliklə, Azərbaycan kinosu inkişaf dövrünü yaşayırdı. Zamanın tələbi əsas meyar idi. İkinci Dünya müharibəsi illərində qəhrəman döyüşçülər Kamal Qasımov və Bəxtiyar Kərimova həsr olunmuş ”Vətən oğlu” və ”Bəxtiyar” kinonovellaları, M.F.Axundzadənin həyat və fəaliyyətinə dair ”Səbuhi” vahid süjet xətti ilə bağlı üç kinonovelladan ibarət ”Bir ailə”, müharibə dövründə dənizçilərin göstərdikləri igidliklərə həsr olunmuş ”Sualtı qayıq T-9” bədii filmləri çəkildi. Cəsur partizan Mehdi Hüseynzadəyə həsr edilmiş ”Uzaq sahillərdə” filmi isə Azərbaycanın, eləcə də, keçmiş sovet kinosunun nailiyyətlərindəndir. İkinci Dünya müharibəsi illərində Azərbaycan sənədli kinosunun bir qrup rejissorları və operatorları cəbhə xəttinə gedərək, əsgərlərin qəhrəmanlığını lentə çəkirdilər. Həmin materiallar xüsusi buraxılışlar kimi əsgərlərə göstərilmək üçün müxtəlif cəbhələrə göndərildi. Bu dövrdə Azərbaycan xalqının arxa cəbhədəki əməyini əks etdirən kinojurnallar və kinooçerklər də yaradıldı. ”Vətən uğrunda”, ”Qayğı”, ”Məktuba cavab”, ”Qardaş köməyi” və s. 1944-cü ildə ”Bakı kinostudiyası” Moskva Sənədli Filmlər Studiyası ilə birgə Xəzər dənizçilərinin qəhrəmanlığından bəhs edən ”Xəzərilər” tammetrajlı sənədli filmini çəkdi. 1945-ci ildə Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 25 illiyi ilə əlaqədar rejissor H.Seyidzadə ”Əbədi odlar diyarı” tammetrajlı sənədli filmini yaratdı. Beləliklə, bir-birin ardınca Azərbaycan həyatını əks etdirən filmlər istehsal olunmağa başlanıldı.





### AZƏRBAYCAN KİNO SƏNƏTİNDƏ YENİ DƏSTİ-XƏTT

1970-80-ci illərdə Dahi Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə kino sənətinin inkişafına, həmin sahədə çalışanlara qayğı və hörmətlə yanaşan Ulu Öndər Heydər Əliyev Azərbaycan Prezidenti seçildiyi gündən respublikanın kino sənəti xadimlərindən məhəbbətini əsirgəmədi. XX əsrin 60-70-ci illəri kinematoqrafiyaya gənclərin böyük bir qrupunun gəlməsi ilə əlamətdar olmuşdur. Onların orta və yaşlı nəslə mənsub xadimlərlə əməkdaşlığı Azərbaycan kinosunun peşəkar səviyyəsinin yüksəlməsinə, milli özünəməxsusluq, ideya dərinliyi ilə fərqlənən filmlərin meydana gəlməsinə səbəb olmuşdur. Məsələn, ”Bir cənub şəhərində” filminin mərkəzində yeniliklə köhnəliyin mübarizəsi və insanın köhnəlmiş adətlərin əsarətindən xilas olması prosesi durur. Bu dövrün filmlərində mənəvi-əxlaqi problemlər, müasir həyata müxtəlif baxışlar, insan xarakterlərinin təhlili, gənc nəslin formalaşması və s. mövzular başlıca yer tutur: ”Uşaqlığın son gecəsi”, ”Gün keçdi”, ”Baş müsahibə”, ”Var olun, qızlar”, ”Həyat bizi sınayır”, ”Xoşbəxtlik qayğıları” və s. filmləri göstərmək olar. 1970-ci ildən ”Azərbaycanfilm” kinostudiyasında ”Mozalan” satirik kinojurnalının istehsalına başlanılmışdır. Kinojurnalda cəmiyyətin antipodları, gündəlik həyatda və təsərrüfatda rast gəlinən qüsur və nöqsanlar tənqid atəşinə tutulur.

### YENİ DÖVRÜN BAŞLANĞICI

Ötən əsrin 90-cı illəri yeni baxışlar, yeni quruluş cəmiyyət qarşısında keyfiyyətcə yeni məqsəd və vəzifələr qoymuşdur. Azərbaycanda milli ideologiyanın və cəmiyyətin yeni inkişaf modellərinin qurulması əsas amillər idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı ilə Azərbaycan kinematoqrafiyasının inkişafında yeni bir dövrün başlanğıcı oldu. O, incəsənət növləri arasında kinonu çox yüksək qiymətləndirmiş, Azərbaycan kinematoqrafiya xadimlərinin xalqımızın keçmiş və müasir həyatından onlarca yüksək keyfiyyətli ekran əsərləri yaratdıqlarını çıxışlarında xüsusi vurğulamışdır. Azərbaycanda milli ideologiyanın və cəmiyyətin yeni inkişaf modellərinin qurulması və digər bu kimi sosial problemlər humanitar elmlərin öncül tədqiqat istiqamətlərinə çevrilmişdir. 1990-cı ildən sonra Azərbaycan kinosunda çəkilən filmlərin sayı əvvəlki illərə nisbətən azalmışdır. Bununla belə, Azərbaycan kinematoqrafçıları böyük əhəmiyyətli, həyati mövzulara müraciət edərək, estetik tələblərə cavab verə biləcək filmlər çəkmişlər. Belə ki, ”Yarasa” və ”Özgə vaxtı” filmləri o illərin ən mükəmməl filmləri sırasındadır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı ilə Azərbaycan kinematoqrafiyasının inkişafında yeni bir dövrün başlanğıcı oldu. O, incəsənət növləri arasında kinonu çox yüksək qiymətləndirmiş, Azərbaycan kinematoqrafiya xadimlərinin xalqımızın keçmiş və müasir həyatından onlarca yüksək keyfiyyətli ekran əsərləri yaratdıqlarını çıxışlarında xüsusi vurğulamışdır.

Müstəqillik illərində çəkilən filmlər sırasında maraq doğuran Azərbaycanın Ümummilli Liderinin geniş və hərtərəfli fəaliyyətindən bəhs edən film N.Səfərovun ssenarisi əsasında operator O.Şıxəliyevin çəkdiyi ”Hamıya nümunə olan ömür yolu” filmidir. Bu əsərdə Ulu Öndər Heydər Əliyevin 1990-cı ildən sonrakı fəaliyyəti öz yığcam ekran ifadəsini tapmışdır. Ssenarist və kinorejissor Vaqif Mustafayevin Ümummilli Lider Heydər Əliyevin fəaliyyətindən bəhs edən silsilə filmləri diqqəti cəlb edir. Xüsusən, onun çəkdiyi ”Həqiqət anı” filmi tamaşaçıların marağına səbəb olmuşdur. Bundan başqa, Vaqif Mustafayev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş 12 serialı ”Heydər Əliyev” filminin 9-nu çəkib. Onlardan ”Əsl məhəbbət haqqında” film böyük uğur qazanıb. Bu film Moskvada keçirilən 4-cü Avrasiya Teleforumunda əsas mükafata və xüsusi mükafata layiq görülüb. ”Bir həsədin tarixi” filmi 2002-ci ildə Yekaterinburqda keçirilən sənədli filmlər festivalında əsas mükafatlardan birini, Moskvada keçirilən 5-ci Avrasiya Teleforumunda ”Qran-Pri” mükafatına layiq görülüb. Bu filmlər müxtəlif ölkələrdə böyük uğurla nümayiş etdirilib. Onu da qeyd edək ki, Bakıda məşhur dünya neft şirkətləri ilə bağlanmış saziş Vaqif Mustafayevin ”Əsrin sazişi” filmində öz əksini tapmışdır.

Son illərin hadisələri də ekran həllini tapmış və beynəlxalq müsabiqələrdə yer almışdır. ”Arxada qalmış gələcək”, ”Atılmamış güllələr”, ”Biz qayıdacağıq”, ”Canavar balası, ”Dolu”, ”Girov”, ”Xoca”, ”Xüsusi təyinatlı İbad”, ”Qarabağa gəzinti”, ”Laçın dəhlizi”, ”Vandalizm”, ”Mübarizə” və s. filmlərdə xalqımızın mübarizəsi, Qarabağ uğrunda gedən döyüşlər öz əksin tapmışdır.

Azərbaycan kino sənətinə dövlət tərəfindən böyük diqqət və qayğı göstərilir. Kino sənəti sahəsində uzunmüddətli səmərəli fəaliyyətlərinə görə, kino xadimlərinə Prezidentin fərdi təqaüdləri, fəxri adlar və mükafatlar verilib. Azərbaycan kinematoqrafçıları bundan sonra da xalqımızın tarixi, keçdiyi yol ilə bağlı hadisələri ekranlaşdırıb, həyat həqiqətlərini kinosevərlərə təqdim edəcəklər.

Həqiqətən də, 127 il ərzində Azərbaycan kinematoqrafiyası bir sıra ölkələr üçün nümunə olacaq sənət nümayiş etdirib. Kinematoqrafiya sahəsində gözəl sənətkarlarımız, ustadlarımız olub. Prezident İlham Əliyev tərəfindən Azərbaycan Kinematoqrafiyasının inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılıb. 2008-2018-ci illərdə Dövlət Proqramının qəbul edilməsi, eyni zamanda, Azərbaycan filmlərinin çəkilişində dövlət investisiyalarının artırılması, həmçinin milli kinematoqraf məhsullarının nüfuzlu festivallara çıxması üçün şəraitin yaradılması, Azərbaycan Kino Agentliyinin təsis edilməsi məhz bu sahəyə olan qayğının və diqqətin göstəricisidir.

***Zümrüd BAYRAMOVA***




# Ermənistanın dost və qaz problemi

## Niyə Solomon adaları təhlükəsizdir, amma Ermənistan yox?

***Erməni yazar düşünür ki, İrəvan nə qədər "sülh gündəmi" ilə tələssə də, hamıya və hər cəhətdən xeyirxah bir xanım kimi görünməyə çalışsa da, ölkə hər an hücuma məruz qala bilər. Artıq bir-iki dəfə deyilib: üçüncü dünya müharibəsi tam sürətlə gedir, baxmayaraq ki, heç kim bunu rəsmi şəkildə elan etməmişdir. Prinsipcə, bunu etmək olar: bir-biri ilə boğuşaraq, döyüşləri bölgələr üzrə bölüşdürün və onları yerli silahlı münaqişələr adlandırın. Olsun, belə olsun, amma ölümlər, dağıntılar, bədbəxtliklər bundan az olmur.***

2024-cü ildə Uppsala Münaqişə Məlumat Proqramının (İsveç) ekspertlərinin fikrincə, dünya müşahidələr tarixində ən çox sayda müharibə və silahlı münaqişə yaşadı. Son on beş il ərzində onların sayı demək olar ki, iki dəfə artıb - bu, layihənin bütün tarixində rekord göstəricidir. Ermənistan heç kimə qarşı döyüşmək fikrində deyil, amma onunla bir az fərqlidir: İrəvan nə qədər "sülh gündəmi" ilə tələssə də, hamıya və hər cəhətdən xoş münasibətə malik xanım kimi görünməyə çalışsa da, ölkə hər an hücuma məruz qala bilər. Bəs onda nə?

Yeni Zelandiyanın Otaqo Universitetinin mütəxəssisləri araşdırma apararaq hipotetik nüvə zərbəsinin nəticələrindən sağ çıxmaq şansı ən çox olan 5 ölkəni müəyyən ediblər. Əgər bu, NATO ölkələri ilə Rusiya arasında baş verərsə, atmosferə təxminən 150 teraqram his buraxıla bilər (bir teraqram 1.000.000 tona bərabərdir) və o zaman yaşamaq üçün əsas amil nüvə qışı deyilən şəraitdə kənd təsərrüfatı məhsullarını saxlamaq imkanı olacaqdır.

Kim sağ qala bilərdi? Ən dözümlü ölkələr siyahısına Avstraliya, Yeni Zelandiya, İslandiya, həmçinin Vanuatu ada dövlətləri və Solomon adaları daxildir. Ermənistan şanslılar siyahısında yoxdur, lakin bu, onun günahı deyil, daha çox bədbəxtlikdir. Coğrafi, iqtisadi (hazırda Ermənistan hakimiyyəti tərəfindən təqib olunan rusiyalı biznesmen Samvel Karapetyanın sərvəti Ermənistan büdcəsinin yarısı ilə müqayisə olunur), həm də siyasi. Bu gün dünyanın diqqəti İrana yönəlib və yaxın gələcəkdə hərbi münaqişə həll olunmasa, dünya güclərinin də gözü Ermənistana çevriləcək. Burada bütün məqam ondan ibarətdir ki, respublika xarici aləmdə müstəqil qurum hesab edilmir və onun üçün qərarlar türklər tərəfindən veriləcək, bəzi müşahidəçilər hesab edir. İran-İsrail münaqişəsi artıq Qafqaz üçün, məsələn, mülki aviasiya sahəsində gözlənilməz nəticələrə gətirib çıxarıb. Bölgədə hava hərəkəti xəritəsi pozulub. İrəvana və Ermənistan paytaxtından digər şəhərlərə uçuşlar təxirə salınıb, bəzi aviaşirkətlər isə marşrutlarını tamamilə dəyişmək məcburiyyətində qalıblar.

İsraillilər və iranlılar bir-birini vurarkən, beynəlxalq uçuşlar həyata keçirən bir sıra sərnişin təyyarələri Yerevanın Zvartnots hava limanında və qonşu ölkələrin hava limanlarında təcili eniş edib. Nəticədə Ermənistan vətəndaşları Bakı hava limanında, Azərbaycan vətəndaşları isə Zvartnotsda olublar.

Erməni köşə yazarı əlavə edir: Alovlu yanğın fonunda bizim üçün daha çox xoşagəlməz məqamlar var. İranın Ermənistandan tək istəyi "Zəngəzur dəhlizi"nin bağlanması idi, əks halda Tehran öz coğrafi üstünlüyünü itirəcəkdi. Burada xatırlamaq lazımdır ki, Ermənistan İranla müttəfiqlik münasibətlərini saxlayır, lakin bu, belə demək mümkünsə, ikincidir. Beynəlxalq müşahidəçilərin qeyd etdiyi kimi, reallıqda Ermənistan nüfuzlu qonşusu ilə nə hərbi, nə iqtisadi, nə də başqa nöqteyi-nəzərdən maraqlı deyildi. Ən azından gözlənilən dərəcədə deyil. Əgər İran dayanarsa, münaqişəni tez bir zamanda həll etməyə nail olarsa və anti-Zəngəzur layihəsinə yenidən güclə yanaşarsa, o zaman hər şey bu gün regionda real gücün kim olduğunu bildiyi üçün fikri heç bir qonşusu üçün maraqlı olmayan Ermənistandan da yan keçəcək. Təbii ki, nəzəri cəhətdən Ermənistan özünü başqa cür aparmalı, İranla münasibətlər qurmaqda daha ağıllı və hiyləgər olmalı idi – onun vasitəsilə türklərə, ruslara, amerikalılara təzyiq göstərmək, Çin və Aİ-yə əl uzatmaq mümkün idi. Amma hər şey belə deyil.

Əgər ölkə rəhbərliyi düzgün vəziyyətdədirsə, görməlidir ki, Yaxın Şərqdə münaqişənin kəskinləşməsi istər-istəməz Cənubi Qafqaza da təsir edəcək. "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi üçün kritik əhəmiyyət kəsb edən Hörmüz boğazının blokadası halında təkcə İran deyil, Hindistan, Rusiya, Azərbaycan, Ermənistan və Gürcüstan da tranzit potensialının bir hissəsini itirə bilər.

Türkiyənin dünən deyil, Metsamor Atom Elektrik Stansiyasının bağlanması kampaniyası işğal və zorakılıqla sona çata biləcək ssenari çərçivəsində çox uyğun gəlir. Hətta İsrailin təriflənmiş "Dəmir günbəzi" İran raketlərinin yalnız bir hissəsini tutduğu halda biz özümüzü necə qoruya bilərik? Azərbaycanın Ermənistana mümkün hücumuna gəlincə, Ermənistan hakimiyyəti Bakının Ermənistana təcavüzü üçün heç bir əsaslı səbəb və ya legitimlik görmür. Sanki legitimlik təcavüzkarın qonşuya hücum etməsi üçün vacib şərtdir.

### Ermənistan nə Aİ-dən, nə də KTMT-dən çıxmayacaq?

Beynəlxalq ekspert qeyd edir ki, Avropa İttifaqında Ermənistan üçün "Giriş qadağandır" işarəsi var. Baş nazir Nikol Paşinyanın və Ermənistan hökumətinin digər nümayəndələrinin Ermənistanın Aİ-dən çıxmaq niyyətində olmadığı barədə bəyanatları respublikanın da KTMT-dən çıxmayacağından xəbər verir. Bu fikirləri politoloq, beynəlxalq məsələlər üzrə mütəxəssis Qriqor Balasanyan Sputnik Ermənistan radiosunun efirində deyib. "İndi Ermənistan heç yerə getmir və getməyəcək. Ermənistan nə Aİ, nə də KTMT-ni tərk etməyəcək. Və baş nazirin Ermənistanın Aİ-dən çıxmayacağı ilə bağlı son bəyanatı Ermənistanın KTMT-də qalacağından xəbər verir", - beynəlxalq ekspert vurğulayıb.

### İrəvanın qaz problemi

Qaz idxalı bərpa olunur, lakin qiymətlər artmaqda davam edir. İqtisadçılar İqtisadi Rəqabətin Müdafiəsi Komissiyasını və İqtisadiyyat Nazirliyini fəaliyyətsizliyə görə tənqid edir, İqtisadiyyat Nazirliyi isə araşdırma aparmağa çağırır. Bu barədə "Sputnik Ermənistan" yazır. Ermənistana maye qaz idxalının həcmi tədricən bərpa olunur, lakin bazarda qiymətlər yüksək olaraq qalır. İqtisad elmləri doktoru, Alternativ Mərkəzin rəhbəri Tatul Manaseryanın fikrincə, bunun səbəbini dövlət tərəfindən lazımi nəzarətin olmamasında axtarmaq lazımdır. "İqtisadiyyat Nazirliyi və İqtisadi Rəqabətin Müdafiəsi Komissiyasının əməkdaşları sadəcə olaraq maaş alırlar, lakin öz funksiyalarını yerinə yetirmirlər. İnhisarçılıq biznes üçün faydalı ola bilər, bəs onda dövlətin rolu hanı?

İyulun 11-də məlum olub ki, Ermənistan-Gürcüstan sərhədində 100-dən çox qaz tankeri ilişib və bu, qiymətlərin kəskin sıçrayışına səbəb olub - litri 120-dən 170-180 drama qədər. Gürcüstan gömrüyündə problem yarandıqdan sonra Ermənistana tədarük artıq bərpa olunsa da, indi qiymət 200 drama çatıb.

Ekspert hesab edir ki, həm qiymətlərə təsir edən obyektiv amilləri, həm də bazar iştirakçılarının gözləntilərini nəzərə almaq lazımdır. O, ölkədə böyük qaz ehtiyatlarının saxlanması üçün infrastrukturun yaradılmasını təklif edib ki, bu da, onun fikrincə, kəskin qiymət dalğalanmalarını yumşaltmağa kömək edəcək. Bundan əlavə, çatdırılmaların əsas hissəsinin həyata keçirildiyi Verxniy Lars məntəqəsinin ötürmə qabiliyyətinin ətraflı öyrənilməsi tələb olunur. Parsyan əlavə edib ki, Rusiyada və dünya bazarlarında neft və qazın qiymətləri qeyri-stabil olaraq qalır ki, bu da maya dəyərinə təsir edir. Bir çox idxalçılar qazın kəsiləcəyindən qorxaraq baha qiymətə alıblar və indi onu baha satmaq məcburiyyətindədirlər.

**V.VƏLİYEV**



Mətanət Məmmədova

# RƏFİQƏ: olsun, olmasın?

***Necə ki, kişilər arasında ən səmimi münasibətlərdən dostlar yaranır, eləcə də ən yaxşı qadın münasibətlərindən rəfiqələr yaranır. Əslində, necə deyərlər, insan halal süd əməndə və bunu həyatında təzahür edəndə dostluqlar və rəfiqəliklər çox gözəl münasibətlərdir. Kiminin qardaşı yoxdur, dostu ona qardaşdır. Kiminin bacısı yoxdur, rəfiqəsi ona bacı sayılır kimi. Lakin insan bəzən həyatda elə mənzərələrlə qarşılaşır, dostu, rəfiqəsi tərəfindən elə zərbələr alır ki, bu zərbələr illərin yarasına çevrilir, qaysaqlamaq bilmir. Bu zaman düşünürük: dostumuz, rəfiqəmiz olsun, olmasın?***

Yaxşı dost dostunu yaxşı, pis dost isə pis yola çəkdiyi kimi, rəfiqələr də belədir. Bəlkə elə buna görə deyirlər ki, qızın rəfiqəsi anası olmalıdır. Bunu qız övladı olan hər bir ana arzulayır. İstəyir ki, bəli, qızının rəfiqəsi özü olsun. Çünki insanları tanımaq olmur. Bəzən heç ağlına gətirmədiyin hadisələr başına gəlir. Azmı şahidi olmuşuq rəfiqəlikdə yaşanan hadisələrin...

Lakin etiraf edək ki, yaxşı dostluqlar kimi, yaxşı rəfiqəliklər də olur. Bəzən iki yaşlı rəfiqə ilə qarşılaşırsan. Həyatlarını bir-birinin yanında keçirən, sirləri-sözləri bir olan, bir tikə çörəyi yarı bölən, rəfiqələr. Onların övladları analarının rəfiqələrini öz anaları kimi hiss edirlər. Aralarında olan yaxınlıq, doğmalıq ailələrinin də yaxınlaşmasına, doğmalaşmasına gətirib çıxarır. Bəzən onların övladları da bu rəfiqəlikdən ilham alıb aralarında yeni dostluq və rəfiqəliklərə yelkən açır.

Belə bir aforizm var: dostluq eyniyyətdən, məhəbbət fərqdən yaranır. Həqiqətən də, xarakter, həyat tərzi eyni olmayan insanların bir-biri ilə dostluğu və rəfiqəliyi uzun sürə bilməz. Eləcə də ağıl, dünyagörüş, həyata baxış kimi məsələlərdə də iki rəfiqə eyni deyilsə, ağıl az və ya çox, dünyagörüş fərli, həyata baxış ayrıdırsa, bu rəfiqələrin bir-biri ilə münasibəti uzun sürə bilməz. Çünki bu uyğunsuzluq bir yerdə münasibətləri qıracaq, yolları ayıracaq.

Niyə deyilir ki, qızın ən yaxın rəfiqəsi anasıdır və yaxud qızın anasından başqa rəfiqəsi olmamalıdır. Çünki yaşca bizdən böyüklər həyatın hər üzünü görüblər. Həm öz, həm də başqalarının taleyində yaxşı olmayan rəfiqələrin "izlərini" həmişə xatırlayırlar. Rəfiqəsinin paxıllığını çəkən, onun müvəffəqiyyətlərinə dözə bilməyən, həyatını mənimsəyən o qədər rəfiqələr olub ki... Odur ki, rəfiqə seçimində çox diqqətli olmalıdır gənc qızlarımız. Bu məsələdə ana nəsihətinə, məsləhətinə qulaq asmalıdırlar. Hər kəslə yaxın münasibətə başlamaq olmaz. Çünki bunun zərbəsini alanda artıq gec olur.

Demirik ki, qızın rəfiqəsi yalnız anası olsun, rəfiqəsi və rəfiqələri olsun. Yaxşı rəfiqə bacıdır, sirr-söz, məsləhət yeridir. Hər zaman yanında bir doğmanın olması, həyatı tək deyil, onunla birlikdə yürütməkdir. Əslində nəyi pisdir ki, bunun?. Lakin unutmayaq ki, yaxşı rəfiqələr belə ola bilər, yaxşı olmayanlar isə insanı elə bir həyata sürükləyər ki, həyatımız qaranlıqdan çıxa bilməz.

1 Avqust - Beynəlxalq Qız Dostları Günüdür. Bu xüsusi gün qız yoldaşları arasındakı münasibətlərin yaranmasına və onu qeyd etməyə həsr olunur.

Rəfiqəmiz, əgər yaxşıdırsa, olsun, əgər yaxşı deyilsə, bunu görməyi bacaraq və vaxt keçmədən həyatımızdan uzaqlaşdıraq ki, peşman olmayaq. Yaxşılarla davam edək: gənclikdən yaşlılığa doğru. Yaşlaşaq, lakin dostluğumuz hər zaman gənc qalsın...



# Qarabağ və Şərqi Zəngəzur- cənnətin kiçik bir parçası!

*Dövlət başçısı İlham Əliyev bildirir ki, infrastruktur layihələrinin əksəriyyətini başa çatdırandan sonra daha böyük vəsait yaşayış evlərinə istiqamətləndiriləcək*

***Bu gün böyük qürur hissi ilə Böyük Qayıdış Proqramının icrasından, hər gün soydaşlarımızın mərhələli qaydada azad edilmiş torpaqlavrımıza qayıdışından və burada yeni həyatın başlanmasından bəhs edirik. Dövlət başçısı İlham Əliyev Xankəndi şəhərində keçirilən III Şuşa Qlobal Media Forumunda bugünümüzün reallıqlarına nail olmaq üçün atılan addımların xronologiyasını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. 30 illik işğal dövrü həm Azərbaycanın hər bir sahədə qüdrətlənməsi, həm də diplomatik mübarizədə qələbəsini təmin etmək üçün real faktlara, tarixi həqiqətlərə söykənən təbliğatının coğrafiyasını genişləndirməsi, hücum diplomatiyasını uğurla həyata keçirməsi mərəhələsi idi.***

Cənab İlham Əliyev bu günlərdə Xankəndidə keçirilən Şuşa Qlobal Media Forumundakı çıxışında da diqqəti Azərbaycanın tarixi Zəfərə, suverenliyimizin tam bərpasının təmin edilməsinə qədər keçdiyi inkişaf yoluna yönəltdi. O illərin əsas çağırışı bu oldu ki, işğalla heç zaman barışmayacağıq. Atılan addımlar, dünyanın ən yüksək tribunalarından səsləndirilən bəyanatlar xalqımızın qələbə əzmini, gələcəyə inamla addımlamasını şərtləndirdi.

30 il xalqımız bu günləri böyük səbirsizliklə gözlədi. 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimiz, onun ardınca 2023-cü ilin sentyabrında həyata keçirilən bir günlük antiterror tədbirləri nəticəsində suverenliyimizin tam bərpa edilməsi bu torpaqlara qayıdışımıza inamı artırdı və artıq bu reallıqların şahidiyik. Prezident İlham Əliyev bu ilin əvvəlində yerli televiziya kanallarına müsahibəsində hədəfləri açıqlayarkən bildirmişdi ki, bu ilin sonuna qədər 30-a yaxın yaşayış məntəqəsində keçmiş köçkünlər məskunlaşacaqlar. Artıq keçmiş məcburi köçkünlərin qayıtdığı şəhər və kəndlərin sayı 18-ə çatdırılıb.

Ümumilikdə Prezident İlham Əliyev Qarabağa və Şərqi Zəngəzura mütəmadi səfərləri zamanı bərpa-quruculuq işləri ilə tanış olur, yaşayış məntəqələrinin, vacib infrastruktur obyektlərinin açılışlarında, təməlqoyma mərasimlərində iştirak edir. Bu baxımdan cənab İlham Əliyevin son Qarabağ səfəri daha yaddaqalan oldu. Şuşada, Ağdamda, Xocalıda olan cənab İlham Əliyev mühüm obyektlərin açılışında iştirak etdi, görülən işlərlə tanış oldu. Onu da qeyd edək ki, bu torpaqlarda soydaşlarımızın məşğulluğunun təmin edilməsi, qeyri-neft sektorunun inkişafı mühüm hədəflər sırasındadır. Dövlətimizn başçısı "Tabaterra" MMC-nin Ağdam Sənaye Parkındakı tütün məmulatlarının istehsalı müəssisəsinin açılışında iştirak etdi. Qeyd edək ki, Ağdam Sənaye Parkında sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılıb. Bunun nəticəsidir ki, Ağdam Sənaye Parkı rezidentlərinin sayına görə ölkəmizdə mövcud sənaye zonaları arasında Sumqayıt Kimya Sənaye Parkından sonra ikinci sənaye parkıdır. Parkda ümumi investisiyaların həcmi 270 milyon manatdan çox olan 30 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Artıq investorlar tərəfindən Sənaye Parkına 121 milyon manatdan çox investisiya yatırılıb, 650-dən artıq daimi iş yeri yaradılıb. İşlə təmin edilənlərin çoxu Ağdam və ətraf rayonların sakinləridir. Ağdam Sənaye Parkının ərazisinin 70 faizdən çoxu artıq sahibkarların istifadəsinə verilib. "Tabaterra" MMC-nin tütün məmulatlarının istehsalı müəssisəsinin açılması ilə Parkda fəaliyyət göstərən müəssisələrin sayı 10-a çatıb. O da məlumdur ki, hazırda ölkədə 9 sənaye parkı var. Bunlar Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Naxçıvan, Hacıqabul, Mingəçevir, Balaxanı, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarıdır. Bununla yanaşı, Masallı, Neftçala, Sabirabad və Şərurda 4 sənaye məhəlləsi yaradılıb.

Ümumiyyətlə, ilin elə bir ayı yoxdur ki, dövlət başçısı İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfəri olmasın. Hazırda işğaldan azad edilmiş ərazilərdə şəhərlərin və kəndlərin bərpası sürətlə davam etdirilir. Bütün işləri öz daxili imkanları hesabına həyata keçirən Azərbaycanın əsas hədəfi Böyük Qayıdış Proqramının icrasının birinci mərhələsi başa çatanadək 140 min keçmiş məcburi köçkünün qayıdışına nail olmaqdır. Bu fakt ölkəmizin ildən-ilə artan iqtisadi gücünün daha bir göstəricisidir. Hazırda Qarabağda və Şərqi Zəngəzurda ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgələrdə reallaşdırılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 50 minə yaxın insan yaşayır.

Böyük Qayıdışdan bəhs edərkən bu mühüm məqamı xüsusi qeyd etməliyik ki, bu qayıdış Cocuq Mərcanlıdan başladı. Məhz Ulu Öndər Heydər Əliyevin qətiyyəti və siyasi iradəsi sayəsində 1993-cü ilin dekabrından 1994-cü ilin yanvarına qədər davam edən və Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılmış uğurlu Horadiz əməliyyatı nəticəsində Füzuli rayonunun bu qəsəbəsi ilə yanaşı, 20 kəndi, həmçinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi. Lakin təhlükəsizlik baxımından uzun müddət məskunlaşmanın qeyri-mümkün olduğu bu kənd 2016-cı ildə Prezident İlham Əliyevin tarixi xidmətləri sayəsində ikinci həyatını yaşamağa başladı. Buna 2016-cı ilin aprelində qəhrəman Azərbaycan Ordusunun düşmənin təxribatına layiqli cavab verməsi və strateji əhəmiyyətli Lələtəpə yüksəkliyini azad etməsi nəticəsində nail olundu. Ağdərənin, Cəbrayılın, Füzulinin işğaldan azad olunmuş ərazilərində Azərbaycan Bayrağı dalğalandı. Aprel döyüşlərində qazanılan qələbədən sonra Cocuq Mərcanlı kəndində təhlükəsiz yaşayışın bərpa edilməsinə, məcburi köçkünlərin öz ata-baba yurdlarına qaytarılmasına əlverişli şərait yarandı. Cənab İlham Əliyev 2017-ci ildə «Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası haqqında» Sərəncam imzaladı. Ərazinin minalardan təmizlənməsindən sonra bu kənddə böyük quruculuq işlərinə başlandı. Dövlətimizin başçısının xüsusi diqqət və qayğısı sayəsində həyata keçirilən bərpa işləri uğurla başa çatdı və Cocuq Mərcanlı öz sakinlərini qarşıladı.

Artıq beş ildir Böyük Qayıdışdan qürurla bəhs edirik. Hədəfə doğru atılan addımların uğurlu nəticəsi göz önündədir. Bu ərazilərin bərpası, yenidən qurulması müasir tələblər səviyyəsində həyata keçirilir, soydaşlarımızın gələcəkdə burada yüksək rifah şəraitində yaşayışı üçün bütün zəruri addımlar atılır. Dövlət başçısı İlham Əliyev bütün çıxışlarında diqqət göstərdiyi əsas məsələlərdən biri məhz azad edilmiş torpaqlarımızın bərpasıdır. Ölkə Prezidenti bildirir ki, icra etdiyimiz layihələrin dünyada misli-bərabəri yoxdur və bəlkə də olmayacaq. Böyük coğrafiyada, 15-16 min kvadratkilometr ərazidə, - hansı ki, Ermənistan onu tamamilə yerlə-yeksan edib, - yeni həyat qurulur.

Bu il tarixi Zəfərimizin beş ili tamam olur. «Konstitusiya və Suverenlik İli» çərçivəsində keçirilən tədbirlərdə şanlı Qələbəmizin mühüm reallıqlarından olan bərpa-quruculuq işlərinə xüsusi diqqət göstərilir. Bu il çərçivəsində dövlət başçısı İlham Əliyev «Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması haqqında» Sərəncam imzaladı. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq hazırlanmış "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", həmçinin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" uğurla icra olunur və bu, ölkənin sosial, iqtisadi və institusional inkişafı üçün mühüm zəmin yaradır. Sözügedən Strategiya sosial-iqtisadi inkişaf üzrə müəyyən edilmiş beş Milli Prioritet əsasında həyata keçirilir. Həmin Strategiyanın ardıcıl və sistemli icrası sayəsində iqtisadiyyatın xarici təsirlərə qarşı dayanıqlığı daha da möhkəmlənmiş, şaxələnməsi dərinləşmiş, iqtisadi artım davamlı və inklüziv xarakter almış, əhalinin rifah səviyyəsi yüksəlmiş və gələcək nəsillər üçün irihəcmli maliyyə ehtiyatları formalaşmışdır. Cənab İlham Əliyev Şuşa Qlobal Media Forumunda «Böyük Qayıdış Proqramı artıq reallaşıb. Təbii ki, bunun mərhələləri olacaq və aydan-aya, ildən-ilə qayıdan vətəndaşların sayı çoxalacaq, Qarabağ, Şərqi Zəngəzur dirçələcək. Mən "Böyük Qayıdış"ın əvvəlində demişdim ki, biz bu bölgəni cənnətə çevirəcəyik, artıq cənnətin kiçik bir parçasıdır. Bunu burada öz gözlərimizlə görürük» söyləyərək onu da əlavə etdi ki, doğrudan da görülən işlər o qədər genişmiqyaslıdır ki, bunu bir cavabda səsləndirmək çətindir. Hər şey göz önündədir. Qayıdan insanların sayı getdikcə artır və bundan sonra daha sürətlə artacaq. Çünki birinci dörd ildə daha çox infrastruktur layihələri icra edildi. Onların əsas hissəsi bitib. Bütün Qarabağ və Şərqi Zəngəzur dairəvi elektrik şəbəkə ilə artıq təmin edilib, Azərbaycanın ənənəvi elektrik təsərrüfatına da qoşulub. Burada artıq 280 meqavat gücündə su elektrik stansiyaları enerji istehsal edir və bu enerji Qarabağdan Azərbaycanın digər bölgələrinə gedir. Çünki bu gün Qarabağda o qədər adam yaşamır ki, bu qədər elektrik enerjisi lazım olsun. Təkcə Füzuli yolunda 7 tunel inşa edilib. Tunellərin ümumi uzunluğu 80 kilometrdir. Ən uzun tunel növbəti iki-üç ayda hazır olacaq. Murov dağının altındakı tunelin uzunluğu 11 min 700 metrdir. Bu, dünya miqyasında ən uzun tunellərdən biridir. Dəmir yolu çəkilib. İndi Ağdama qatarla rahat getmək mümkün olacaq. Ağdam-Xankəndi dəmir yolunun təməli qoyulub. Xankəndi-Şuşa kanat yolunun da tikintisi yaxın zamanlarda başlayacaq və çox mənzərəli bir vasitə olacaq. Eyni zamanda, bunun funksional tərəfi də çox önəmlidir. Hər yerdə inşaat-quruculuq işləri aparılır, yaşayış binaları tikilir, soydaşlarımız doğma yurd-yuvalarına qayıdır.

İşğaldan azad olunmuş torpaqlara keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. İyulun 29-da növbəti köç karvanı ilə Ağdam rayonunun Xıdırlı kəndinə çatan ailələrə mənzillərin açarları təqdim olundu. Bu mərhələdə Xıdırlı kəndinə 60 ailə - 236 nəfər köçürüldü. Xıdırlıya köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub. Artıq Böyük Qayıdışa dair I Dövlət Proqramının icra müddətinin başa çatmasına yaxınlaşırıq. Əsas hədəf həmin müddətə qədər 140 min keçmiş məcburi köçkünü doğma yurd-yuvasına qaytarmaqdır.

***Yeganə Əliyeva***





# Kazino turizmin inkişafına yeni imkanlar yarada bilər

***Azərbaycan beynəlxalq aləmə inteqrasiya prosesləri çərçivəsində dünya dövlətləri ilə iqtisadi, sosial əlaqələrini genişləndirib. Bu baxımdan demək olar ki, bu gün dünyanın əksər ölkələri ilə iqtisadi-ticarət əlaqələri mövcuddur və bu əlaqələr daim genişlənir. Qurulan və həyata keçirilən əlaqələrin inkişafında turizm sahəsində görülən işlər müsbət qiymətləndirilir.***

Nəzərə almaq lazımdır ki, dünyada bəzi ölkələrində turizm iqtisadiyyatın əsas inkişaf və gəlir istiqamətlərindən hesab olunur. Daha doğrusu, iqtisadi sferada turizmin payı hər zaman yüksək dəyərləndirilir. Elə ölkələri misal olaraq göstərmək olar ki, yalnız turizmdən əldə olunan gəlir ən strateji sahələrdən qazanılan gəlirləri üstələyir. Təbii ki, turizmin inkişafını və xarici ölkələrdən turizm mərkəzlərinə marağı artırmağın bir neçə tələbləri mövcuddur. Yeni turizmin müxtəlif növlərinin, sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafına nail olunmasıdır. Birmənalı şəkildə qeyd etmək olar ki, Azərbaycanda bu sahədə ciddi və əsaslı nailiyyətlər əldə olunub. Sadəcə, bu sahənin inkişafı və müxtəlif əcnəbi turistlərin ölkəmizdə turizmə marağını daha da artırılması üçün bir neçə tələbləri, xüsusilə də kazino sənayesinin həyata keçirilməsinə zərurət var. Kazino sənayesinin yaradılması bir çox aspektlərdən böyük önəm daşıyır. Belə ki, kazinoların fəaliyyətə başlaması ölkəmizdən xaricə çıxarılan vəsaitlərin azalmasına səbəb olacaq, üstəlik, iqtisadi inkişafa da təkan verəcək. Nəticədə həm ölkəmizdən xarici ölkələrin kazinolarına axan milyonlar ölkəmizdə qalacaq, həm turizm sektoru inkişaf edəcək, həm də minlərlə yeni iş yerləri yaradılacaq. Digər tərəfdən, ölkəmizdə kazinoların olmaması bir çox qumar həvəskarlarını onlayn oyunlara sövq edir. Bu isə bəzi hallarda vətəndaşların dələduzların qurbanına çevrilməsinə gətirib çıxarır. Məsələnin digər narahatlıq doğuran tərəfi isə bu cür qumar oyunlarından çirkli pulların yuyulması üçün istifadə olunmasıdır. Uzun illərdir ki, Azərbaycanda kazinoların fəaliyyəti dayandırılıb. Turistlər istirahət üçün gedəcəyi məkanı seçərkən daha çox əyləncə biləcəkləri məkanlara üstünlük verirlər. Bu baxımdan ölkələr turizm mərkəzləri yaradarkən daha çox əyləncə vasitələrinə üstünlük verirlər. Bunların arasında kazinolar üstünlük təşkil etdiyini qeyd etsək, səhv etmərik. Xarici turistlər, o cümlədən də bəzi azərbaycanlı həvəsakarlar arasında kazino oyunlarına maraq böyükdür.

**"Sea Breeze" kimi dünya miqyaslı möhtəşəm istirahət mərkəzində kazinonun fəaliyyəti qeyri-leqal oyun biznesi və fırıldaqçılığa ciddi zərbə olardı**



## Gürcüstan kazinolarının əldə etdiyi gəlirlərin təxminən 20 faizi Azərbaycan vətəndaşlarının payına düşür

Azərbaycanlı həvəskarlar kazino oyunlarında iştirak etmək üçün xarici ölkələrə üz tuturlar. Xüsusilə də Azərbaycan vətəndaşları Gürcüstana gedirlər. Məlumatlara görə, Gürcüstan kazinolarının əldə etdiyi gəlirlərin təxminən 20 faizi Azərbaycan vətəndaşlarının payına düşür. Bundan əlavə, Kipr və Monteneqro kazinolarına üz tutan azərbaycanlıların sayı da yetərincə çoxdur. Ümumiyyətlə, Gürcüstanda qumar oyunları geniş yayılıb. Bu ölkənin turizm sektorunda gəlirlərinin böyük həcmini kazino oyunlarından gələn gəlirlər təşkil edir. 2021-2022-ci illərdə Gürcüstanda qumar sektorunun dövriyyəsi 16,45 milyard avrodan 17,82 milyard avroya yüksəlib, 2024-cü il də isə kazino sektorunun dövriyyəsi 28 milyard ABŞ dolları olub. Qazaxıstanda da kazino biznesi ölkəyə xeyli gəlir gətirir. Rəsmi rəqəmlərə görə, 2023-cü ildə Qazaxıstanda qumar və mərc fəaliyyəti ilə məşğul olan mərkəzlərin ümumi gəliri 2,85 milyard ABŞ dollar təşkil edib. 2023-cü ildə Qazaxıstanın dövlət büdcəsinə kazinolardan 245 milyon dollar vergi ödənilib.

Özbəkistan da artıq 2025-ci ildə qumar oyunları üçün lisenziyalar verməyə başlayıb. Çünki rəsmi məlumata görə, 2023-cü ildə Özbəkistan vətəndaşları onlayn oyunlara təxminən 1 milyard dollar xərcləyiblər. Qeyri-rəsmi hesablamalara görə isə, bu rəqəm 7-8 milyard dollardır. Özbəkistanda kazinolar leqallaşdırıldıqdan sonra bu sahədən əldə olunan illik gəlirin 2 milyard dollara çatacağı proqnozlaşdırılır.

2023-cü ildə Rusiyada kazino sənayesinin ümumi gəliri təxminən 2,1 milyard avro təşkil edib. Hətta BƏƏ-də uzun illər qadağan olan kazinoların fəaliyyətinə icazə verilir, 2027-ci ildə ilk kazinonun açılması gözlənilir. Çində isə xüsusi ərazidə - Makaoda kazinoya icazə verilir və burada 30-dan artıq kazino var. 700 min nəfər əhalisi olan Makaoda (Çin) 2024-cü ildə yalnız kazino sektorundan əldə edilən gəlir 28,3 milyard ABŞ dolları təşkil edib. Bu göstərici xüsusi inzibati bölgənin ÜDM-nin təxminən 40 %-nə, dövlət büdcəsinin isə 50 %-nə bərabərdir. Sinqapur, Filippin, Monako və Kamboca kimi digər ölkələr də kazinolarda oynamaq üçün bu ölkələrə gələn turistlərdən əhəmiyyətli gəlir əldə edirlər.

Nəzərə almaq lazımdır ki, qlobal kazino sənayesinin ümumi dövriyyəsi yarım trilyon dollardır və bu rəqəmin ilbəil artması proqnozlaşdırılır. 2023-cü ildə bazar 540 milyard dollar olub, 2024-cü ildə isə 580 milyard dollara yüksəlib. 2028-ci ilə qədər dövriyyənin həcminin 745 milyard dollara çatacağı proqnozlaşdırılır. Qumar sektorunun leqallaşdırılması və effektiv tənzimlənməsi bir sıra ölkələrdə özünü doğrultmuş uğurlu iqtisadi model kimi çıxış edir. Məsələn, 700 min nəfər əhalisi olan Makaoda (Çin) 2024-cü ildə yalnız kazino sektorundan əldə edilən gəlir 28,3 milyard ABŞ dolları təşkil edib. Bu göstərici xüsusi inzibati bölgənin ÜDM-nin təxminən 40 %-nə, dövlət büdcəsinin isə 50 %-nə bərabərdir.

Mütəxəssislərin fikrincə, kazinoların fəaliyyətə başlamasının Azərbaycana gələn turist sayına böyük təsiri olacaq. Azərbaycanda bu əyləncə növünə maraq göstərənlər uzun illərdir xarici ölkələrə üz tuturlar. Bu isə milyonlarla manat vəsaitin xaricə axması deməkdir. Digər tərəfdən, ölkəmizdə kazinoların olmaması bir çoxlarını onlayn oyunlara sövq edir ki, bu da bir çox hallarda vətəndaşların dələduzların qurbanına çevrilməsinə gətirib çıxarır. Ona görə də bu sahə ilə bağlı hüquqi bazanın formalaşması ilə dövlət büdcəsinə əlavə gəlirlərin yeni bir mənbəyi açılmış olar.

Dünyanın bəzi yerlərində kazino sektoru şəhərlərin əsas iqtisadi dayağıdır. Hazırda yalnız Las Veqas və Makao deyil, həmçinin Filippin, Cənubi Koreya, Monako, Malta və Gürcüstan kimi ölkələr də kazino infrastrukturu vasitəsilə xarici investisiyaları cəlb edir, turizm sektorunu stimullaşdırır və büdcə gəlirlərini artırır. Kazino sənayesi sayəsində dövlət büdcəsinə stabil və yüksək məbləğdə vergi axını təmin edilir. Bu gəlirlər sosial və infrastruktur layihələrin icrasına yönəldilə bilər.

## Bir dəfə ölkəmizə gələn xarici turist kazinoların olmadığını əsas gətirərək ikinci dəfə Azərbaycana səfər etməkdən imtina edir

Reallıq ondan ibarətdir ki, xarici turistlər bir dəfə ölkəmizə səfər edir və kazinoların olmadığını əsas gətirərək ikinci dəfə Azərbaycana səfər etməkdən imtina edirlər. Yeni xarici turistlər kazino oyunlarının keçirildiyi digər ölkələri seçirlər. Bu isə ölkə vətəndaşları ilə yanaşı xarici turistlərdən cəlb olunmalı olan vəsaitlərin itirilməsi deməkdir. Ölkəmizdə kazinoların olmaması ən çox da iqtisadi gəlirlərə təsir edir. Azərbaycanda kazinoların açılması dövlət büdcəsinə əlavə vergi gəlirləri gətirə bilər. Qumar biznesi lisenziyalaşdırılıb, dövlətin tam nəzarəti altına alındıqdan sonra, həm lisenziya haqları, həm də dövriyyədən alınan vergilər vasitəsilə ciddi maliyyə vəsaiti toplamaq mümkündür. Bu vəsaitin bir hissəsi sosial layihələrin maliyyələşdirilməsinə, infrastrukturun yaxşılaşdırılmasına və digər prioritet sahələrin inkişafına yönəldilə bilər. Məsələn, Böyük Britaniyada bu gəlir illik 20 milyard, İtaliyada 15 milyard, Niderlandda isə 4 milyard ABŞ dolları civarındadır. Kazinoların leqallaşdığı Gürcüstan (2001-ci ildən) illik 100-150 milyon, Rusiya (2009-cu ildən) isə 20-30 milyon dollar civarında vergi gəlirləri əldə edib. Oxşar model Azərbaycanda da tətbiq edilərsə, illik milyonlarla manat həcmində gəlir qazanmaq mümkündür.

Ardı Səh. 14

ARAŞDIRMA



Əvvəli-Səh-13

Müsbət hal olaraq qiymətləndirilən məqam ondan ibarətdir ki, Azərbaycan Prezidenti İlham Əliyev Mülki, Cinayət, İnzibati Xətalar Məcəllələrinə, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Reklam haqqında", "Lisenziyalar və icazələr haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" qanunlara dəyişikliklər i təsdiqləyib.

Bundan əlavə, Nazirlər Kabinetinə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, kazino oyunlarının təşkili və keçirilməsi ilə bağlı normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etmək tapşırılıb. Bütün bunlar Xəzər dənizinin Azərbaycana mənsub olan bölməsində süni torpaq sahələrində kazino oyunları təşkil edilməsinə imkanlar yaradacaq.

Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı fərmanla Xəzər dənizinin (gölünün) ölkəmizə mənsub bölməsində süni torpaq sahələrində kazino oyunlarının təşkili üçün lisenziyaların verilməsi səlahiyyəti Dövlət Turizm Agentliyinə həvalə olundu. Bu qərar oyun biznesinin tənzimlənməsi ilə yanaşı turizm strategiyasının yeni mərhələyə keçidi baxımından əhəmiyyətli bir dönüş nöqtəsidir.

Söz yox ki, Azərbaycanın Xəzəryanı ərazilərdə xarici turistlər üçün kazinoların yaradılması müsbət nəticələr verə bilər. Bu isə turizmin inkişaf etdirilməsi ilə yanaşı dövlət büdcəsinə gəlirlərin daxil olmasına yeni imkanlar yaradar. Xüsusilə də Xəzəryanı ərazidə yardılan"Sea Breeze" kimi dünya miqyaslı möhtəşəm istirahət mərkəzində kazinonun fəaliyyəti qeyri-leqal oyun biznesi və fırıldaqçılığa ciddi zərbə olardı. Həmi də bu ərazilərə, Rusiya, Türkiyə, İran, Qazaxıstan və Körfəz ölkələrindən gələn qısamüddətli və yüksək gəlirli ziyarətçilərin ölkəmizə turist olaraq gəlməsinin sayı artar.

Milli Məclisin deputatı Vüqar Bayramov hesab edir ki, son illər müxtəlif alətlər, eləcə də kazinolar vasitəsilə fərqli dövlətlərdə gəlmə turizmin təşviq edilməsi müşahidə olunur: "Bu, turizm sektorunda daxilolmalara birbaşa təsir etməklə yanaşı, gəlmə turizmi təşviq edir. Hazırda qlobal kazino sənayesinin ümumi dövriyyəsi yarım trilyon dollardan çoxdur. Son illər bu sahədə artım dinamikası müşahidə olunmaqla yanaşı, proqnozlar da trendin davam edəcəyindən xəbər verir. Belə ki, 2023-cü ildə kazino sənayesinin gəlirləri 540 milyard dollar olub, 2024-cü ildə isə 580 milyard dollara yüksəlib. 2028-ci ilə qədər dövriyyənin həcminin 745 milyard dollara çatacağı proqnoz edilir".

Deputat bildirib ki, Azərbaycana gələn turistlərin sayındakı artım turizm infrastrukturunun daha da inkişaf etdirilməsini, əlavə istirahət və əyləncə obyektlərinin açılması daha da aktuallaşdırıb. Bir çox turizm ölkələri kimi Azərbaycanda da kazinoların fəaliyyətinə icazə verilməsi bu addımlardan biri ola bilər. Gürcüstanda bu sahədəki vəziyyətə toxunan deputat söyləyib ki, bu ölkənin turizm gəlirlərinə görə Azərbaycandan irəlidə olmasının əsas səbəblərindən biri məhz kazino biznesinin leqallaşdırılmasıdır. Onun sözlərinə görə, Gürcüstan kazinolarının gəlirlərinin əhəmiyyətli hissəsi xarici müştərilərdən, həmçinin, Azərbaycandan səfər edən turistlərdən daxil olur".

İqtisadçı ekspert Asif İbrahimov isə bildirib ki, son illərdə turizmin inkişafı Azərbaycanın iqtisadi prioritetlərindən biri kimi ön plana çıxır. Bu baxımdan kazinoların açılması məsələsi cəmiyyətin müxtəlif təbəqələrində və iqtisadi dairələrdə maraq doğuran mövzulardandır. Bu addım bir sıra sahələrdə ölkə iqtisadiyyatına müsbət təsir göstərə bilər.

Asif İbrahimovun sözlərinə görə, ilk növbədə, kazinoların fəaliyyəti turizm sektorunu canlandıra bilər: "Dünyada bir çox ölkə məhz bu yolla xarici turist cəlb edərək, iqtisadiyyatına böyük həcmdə valyuta axını təmin edir. Azərbaycanda da belə bir təcrübənin tətbiqi, xüsusilə qonşu ölkələrdən – Rusiya, İran, Türkiyə və Orta Asiya ölkələrindən gələn turistlərin sayını artırmaqla nəticələnə bilər. Bu da öz növbəsində hotellər, istirahət mərkəzləri, restoran və digər xidmət sahələrinin inkişafına təkan verər. Bununla yanaşı, kazinoların leqallaşdırılması dövlət büdcəsinə vergi daxilolmalarını artırmaq baxımından da əhəmiyyətlidir. Kazino sektorunda fəaliyyət göstərən müəssisələrdən alınacaq rüsumlar və vergilər, həm mərkəzi, həm də yerli büdcələrə əlavə gəlir gətirə bilər. Bu isə sosial layihələrin maliyyələşdirilməsi və infrastrukturun təkmilləşdirilməsi baxımından yeni imkanlar yarada bilər.

Kazinoların açılması həmçinin məşğulluğun artırılmasına səbəb ola bilər. Bu sahədə minlərlə insan – o cümlədən menecerlər, xidmət işçiləri, təhlükəsizlik əməkdaşları və texniki heyət – işlə təmin oluna bilər. Bununla bərabər, kazinoların fəaliyyəti nəqliyyat, tikinti, qida və digər əlaqəli sahələrdə də iqtisadi aktivliyi artıracaqdır. Nəhayət, belə bir addım ölkədə infrastrukturun inkişafına da töhfə verə bilər. Kazino komplekslərinin tikintisi və onların ətrafında yaradılacaq istirahət zonaları, yollar, xidmət obyektləri və digər infrastruktur layihələri ümumi iqtisadi inkişafı stimullaşdıra bilər".

Azərbaycanda bu fəaliyyət yalnız süni şəkildə yaradılmış torpaq sahələrində və əsasən xarici turistlər üçün nəzərdə tutulur

Əksər ölkələrdən fərqli olaraq, Azərbaycanda bu fəaliyyət yalnız süni şəkildə yaradılmış torpaq sahələrində və əsasən xarici turistlər üçün nəzərdə tutulmuş məhdud formatda həyata keçiriləcək. Bu isə həm coğrafi, həm də demoqrafik məhdudiyyətlərin tətbiqi deməkdir. Hazırkı qanunvericilik dəyişiklikləri bu sahədə ciddi nəzarət və tənzimləmə mexanizmlərinin formalaşdırılmasını nəzərdə tutur. Məsələn, 21 yaşa qədər şəxslərin pul uduşlu oyunlara buraxılması qadağandır. Bu mühafizəkar və ehtiyatlı yanaşma, eyni zamanda həssas sosial qrupların qorunmasına xidmət edir. Dəyişikliklərin ən mühüm elementlərindən biri - kazino fəaliyyətinin yalnız süni torpaq sahələrində təşkilinə icazə verilməsidir. Bu, istər sahənin coğrafi izolyasiyasını təmin edir, istərsə də onun nəzarətdə saxlanmasını asanlaşdırır. Quru (materik) ərazidə kazino fəaliyyətinə icazə verilmir və bu, hələ də qüvvədə olan 27 yanvar 1998-ci il tarixli "Azərbaycan Respublikasında iqtisadi cinayətkarlığa qarşı mübarizə sahəsində bəzi tədbirlər haqqında" Prezident sərəncamına əsaslanır. Sərəncamda ölkə ərazisində pul uduşlu oyunlara qarşı sərt tədbirlərin görülməsi tapşırılır. Bu səbəbdən, qəbul edilən dəyişikliklər heç bir halda ənənəvi və ya virtual qeyri-qanuni kazinoların leqallaşdırılması demək deyil. Əksinə, bu addımlar həmin qanunsuz fəaliyyətlərə qarşı mübarizəni daha da sərtləşdirmək məqsədi daşıyır. Eyni zamanda, kazino fəaliyyəti ciddi lisenziyalaşma rejimi altında təşkil ediləcək. Bu məqsədlə yüksək məbləğdə - hər il təkrar ödənilməklə 340 min manat - dövlət rüsumu müəyyən edilib. Bu məbləğ digər icazə tələb olunan fəaliyyət sahələri ilə müqayisədə rekord göstəricidir və dövlətin bu sektora məhdudlaşdırıcı münasibətinin daha bir göstəricisidir. Qanunvericiliyə əsasən, kazino təşkilatçıları hüquqi şəxs qismində mənfəət vergisinə cəlb olunacaqlar. Hazırda Vergi Məcəlləsinə uyğun olaraq, mənfəət vergisi 20 %, fiziki şəxslərin gəlir vergisi isə 14 % təşkil edir. Lakin ekspertlər hesab edirlər ki, bu gəlirlər klassik əmək fəaliyyətindən fərqli olaraq riskə əsaslanan qazanc formasıdır və bu səbəbdən onlara daha yüksək - 30-40 % arası diferensial vergi dərəcələrinin tətbiqi məqsədəuyğun olardı. Bu yanaşma həm də sosial ədalət prinsipinə uyğun olaraq yüksək gəlirli şəxslərin dövlət büdcəsinə daha böyük töhfə verməsini təmin edə bilər. Diferensial vergi sistemində 1 000 manata qədər olan uduşlara 15 %, daha yüksək məbləğlərə isə mütərəqqi şəkildə 25-30 % və daha artıq vergi dərəcələrinin tətbiqi mümkündür. Bu yanaşma həm sosial ədalət prinsipinə uyğundur, həm də yüksək gəlirli oyunçuların dövlət büdcəsinə daha çox töhfə verməsini təmin edə bilər.

Rəsmi statistikaya əsasən, 2024-cü ildə Azərbaycana gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı 2,63 milyon nəfərə çatıb. Bu, əvvəlki illə müqayisədə 26 %-lik artım deməkdir. Yalnız 2025-ci ilin ilk yarısında ölkəmizə 178 ölkədən 1 milyon 217,4 min nəfər əcnəbi və vətəndaşlığı olmayan şəxs səfər edib. Bu dinamika Azərbaycanın beynəlxalq turizm bazarında getdikcə daha cəlbedici məkan olduğunu göstərir. Kazino sektorunun leqallaşdırılması Azərbaycanın qeyri-neft iqtisadiyyatında yeni və dayanıqlı gəlir mənbələrinin formalaşdırılması məqsədilə atılmış strateji addımdır. Lakin bu proses yalnız güclü dövlət nəzarəti, şəffaf hüquqi mexanizmlər və ictimai maraqların qorunması kontekstində həyata keçirilməlidir.

***İLHAM ƏLİYEV***

# "Fransanın qətnaməsi sülh danışıqlarını çətinləşdirə bilər"

POLİTOLOQ ŞƏRH ETDİ



"Fransa Milli Assambleyasında Ermənistanla bağlı təqdim olunan və qəbul edilən qətnamələr Fransa dövlətinin Cənubi Qafqaz siyasətində birtərəfli və qeyri-obyektiv yanaşmasının davamıdır. Bu qətnamələrin məqsədi yalnız humanitar və ya hüquqi deyil - daha dərinə gedən geosiyasi məqsədlər güdür. Fransa regionda möhkəmlənmək, təsir imkanlarını artırmaq və eyni zamanda Azərbaycanı siyasi təzyiq altında saxlamaq istəyir". Bu sözləri S A-ya açıqlamasında politoloq Elşad Həsənov deyib. Onun sözlərinə görə, Fransanın bu cür addımları Ermənistanla münasibətləri xüsusi strateji tərəfdaşlıq səviyyəsinə qaldırmağa xidmət edir. Həm Fransa Senatında, həm də Milli Assambleyada ard-arda qəbul edilən sənədlər Ermənistanın maraqlarını müdafiə edir və Azərbaycanın ərazi bütövlüyü ilə bağlı beynəlxalq hüquqa əsaslanan mövqeyini gözdən salmağa cəhd edir: "Lakin bu, eyni zamanda Fransa kimi dövlətin beynəlxalq vasitəçi kimi etibarlılığını şübhə altına alır. Əgər bir dövlət açıq şəkildə tərəf saxlayırsa, onun vasitəçilik missiyasına inam da azalır. Fransa, xüsusilə Makron administrasiyası dövründə Ermənistanla əlaqələri kəskin şəkildə dərinləşdirməyə başlayıb. Bu, əsasən erməni lobbisinin Fransada güclü olması ilə bağlıdır. Fransa siyasətçiləri, xüsusən də daxili siyasətdə reytinq qazanmaq və erməni icmasının dəstəyini almaq üçün Cənubi Qafqaz mövzusunu tez-tez istismar edirlər. Bu isə beynəlxalq münasibətlərdə ciddi etik və hüquqi problemlərə yol açır.

Bu cür yanaşmalar danışıqlar prosesinə zərbə vurur. Sülh danışıqları yalnız tərəflərin bərabərhüquqlu şəkildə iştirak etdiyi və üçüncü tərəflərin neytral vasitəçi kimi çıxış etdiyi şəraitdə uğur qazana bilər. Əgər Fransa kimi bir ölkə Ermənistanın mövqeyini açıq şəkildə müdafiə edirsə və Azərbaycanı təcrid etməyə çalışırsa, bu zaman etimad mühiti pozulur və sülh perspektivləri zəifləyir. Bundan əlavə, Fransa Cənubi Qafqazda Türkiyə və Azərbaycanın artan roluna qarşı bir tarazlıq yaratmaq istəyir. Lakin bu cəhd birtərəfli və qeyri-obyektiv olduğu üçün öz-özlüyündə uğursuzluğa məhkumdur. Region ölkələrinin maraqlarını nəzərə almadan aparılan hər hansı siyasət nə sülhə, nə də sabitliyə töhfə verə bilər. Fransa kimi beynəlxalq aktorların bu cür yanaşmalardan çəkinməsi və regionda sülhün bərqərar olması üçün obyektiv, ədalətli və beynəlxalq hüquq prinsiplərinə əsaslanan mövqe sərgiləməsi vacibdir. Əks halda, Fransa yalnız öz nüfuzuna zərər vurmuş olacaq və bölgədə arzuolunmaz geosiyasi gərginliyin alovlanmasına səbəb ola bilər".

***Ziya Hikmətoğlu***

# "Bakcell" və "Uber" tərəfdaşlığı genişlənir

İnnovasiya və sürət lideri "Bakcell" dünyanın aparıcı taksi aqreqatorlarından biri olan "Uber" iləəməkdaşlığını davam etdirir."Uber" platforması vasitəsilə hər sifariş zamanı sərnişinlər səyahət boyu "Bakcell"in ödənişsiz təklif etdiyi 1GB həcmində internet paketindən faydalana biləcəklər. Təklifdən yararlanmaq üçün "Uber" tətbiqi üzərindən sifariş zamanı "Fastest" kateqoriyasındakı tariflərdən birini seçmək kifayətdir. Təqdim olunan 1 GB internet paketi sərnişinlər üçün 30 dəqiqə ərzində keçərli olacaq."Bakcell" və "Uber"in istifadəyə verdiyi bu innovativ xidmət sürət və bağlantını bir araya gətirərək sərnişinlərə daha səmərəli və fərqli səyahət təcrübəsi qazandıracaq.




"Bakcell" davamlı olaraq abunəçilərinin gündəlik təcrübəsini zənginləşdirən innovativ məhsul və həllər təqdim edir. Belə ki, son bir il ərzində şirkət Azərbaycanda "Birinci Tariff", "Tarif məsləhətçisi", "VoWifi", "Bakcell Fiber", "Star tarifləri" daxil olmaqla süni intellekt, texnologiya və son dövr yeniliklərə əsaslanan məhsul və xidmətlərini istifadəyə verib. Təklif barədə daha ətraflı məlumatı "Bakcell"in sayt ndan və ya rəsmi sosial şəbəkə hesablarından əldə etmək mümkündür.



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “ ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb.*

# SOS: yanğınlar ekosistemi məhv edir!







Dünyanın quru ərazisinin üçdə birini əhatə edən və canlı aləmin yarıdan çoxuna ev olan meşələr dünya ekosisteminin ən vacib qollarından biri hesab olunur. Quruda yaşayan canlıların 80%-nin sağ qalması meşələrdən asılıdır. Meşələrin məhvinə görə sayı azalan heyvanların ölümü ekosistemdə böyük bir boşluq yaratmaq deməkdir. Növünə, yaşına və iqliminə görə bəzi istisnalar olsa da, orta hesabla bir ağac bir gündə 10-12 insanın ehtiyacı olan qədər oksigeni istehsal edir. Yəni sadəcə bir ağac kəsilsə, 10-12 adam 1 günlük oksigen ehtiyatını itirir. Başqa sözlə,1 ağac insan ömrünün bir günü deməkdir. Üstəlik, meşələr təxminən 1,6 milyard insan üçün qazanc mənbəyidir.

Yanğınlar meşələrin mövcudluğu üçün ən böyük təhlükədir. Xüsusilə yay aylarında təbii və ya insan faktorları nəticəsində baş verən yanğınlar yüz illər boyu böyüyən ağacların qəfil məhvinə, təbii tarazlığın pozulmasına, meşədə canlı növlərinin və təbii yaşayış yerlərinin nəsli kəsilməsinə, torpaqda üzvi maddələrin itirilməsinə səbəb olur. Meşə yanğınları adətən hiss olunmadan başlayır, sürətlə yayılır, bütün meşəni məhv edir. Yanğınlar ildırım çaxması, vulkan püskürməsi və yüksək temperatur kimi səbəblərdən, həmçinin səhlənkarlıq, ehtiyatsızlıq və qəsdən baş verir.

Son bir neçə ildir ki, Türkiyədə meşə yanğınları tez-tez təkrarlanır. Son yanğın isə 5 gün öncə baş verdi. İzmir, Aydın, Bolu, Manisa, Karabük və Uşak vilayətlərində ciddi meşə yanğınları qeydə alındı. Ölkənin bütün qurumlarının aidiyyəti orqanları hadisə bölgələrinə təxliyə edildi. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycanın Fövqəladə Hallar Nazirliyinin (FHN) Aviasiya dəstəsinin “BE-200ÇS” tipli amfibiya təyyarəsi də ən şiddətli yanğınların baş verdiyi bölgələrdən olan İzmirdə söndürmə işlərinə dəstək məqsədilə Türkiyəyə göndərildi.

Təkcə Aydındakı yanğın vilayətin cənub və şimal hissələrində təxminən doqquz kilometrlik xətt üzrə yanğın baş verdi, buradakı yanğınların söndürülməsinə 7 təyyarə, 15 helikopter, çox sayda texnika və təxminən 370-ə yaxın canlı qüvvə cəlb edildi. İzmirdəki yanğınların söndürülməsində isə 3 təyyarə, 15 helikopter, çox sayda texnika və canlı qüvvə iştirak edirdi. Ölkənin Manisa vilayətində 7 helikopter fəaliyyət göstərirdi. Bolu vilayətində də vəziyyət eynidir. Sıx meşəlik ərazidə başlayan yanğının söndürülməsinə Bolu ilə yanaşı, ətraf vilayətlərdən də hava vasitələri cəlb olunub. Bölgədə 12 helikopter, çox sayda yanğınsöndürən avtomobil və 1500-ə yaxın canlı qüvvənin iştirakı ilə alovla mübarizə fasiləsiz davam edirdi. Çankırının Ilgaz rayonunda meşə yanğını qurudan və havadan gələn qrupların müdaxiləsi ilə nəzarətə götürülüb. Yanğın zamanı 44 hektar əraziyə ziyan dəydiyi bildirilib.

Meşə yanğınları ilə bağlı son vəziyyəti şərh edən Kənd Təsərrüfatı və Meşə Naziri İbrahim Yumaklı İzmir Menderesdəki yanğının qismən nəzarət altına alındığını açıqlayıb. Rəyasət Heyətinin Rabitə Müdirliyi son 4 gündə meşə və kənd yerlərində baş verən 306 yanğına müdaxilə edildiyini, 304 yanğının söndürüldüyünü bildirir. Prezidentin sosial media hesabından edilən açıqlamada, ”Son 4 gündə meşələrdə və çöllərdə baş verən 306 yanğına meşə qəhrəmanları müdaxilə etdi. Meşə yanğınlarına nəzarət etmək üçün qruplar havadan və qurudan müdaxilə edərək 304 yanğını söndürdü”, - deyə qeyd edilir.

Fövqəladə Hallar və Fövqəladə Hallar Rəhbərliyi (AFAD) sədri Okay Memiş, ilkin müşahidələrə görə, avqustun 15-də başlayan meşə yanğınlarında İzmir, Manisa və Aydında ümumilikdə 142 binanın zərər çəkdiyini bildirib. Bunlardan 11-i dağılıb, 92-si ağır, 32-si isə yüngül zədələnib. Okay Memiş meşə yanğınlarından zərər çəkmiş vətəndaşlara ən böyük təsəllinin yanğınlarda can itkisinin olmaması olduğunu bildirib. Ölkə üzrə ümumilikdə 4700 vətəndaş meşə yanğınlarından zərər çəkmiş yaşayış məntəqələrindən təhlükəsiz ərazilərə təxliyə edilib.

İzmir valisi Süleyman Elban avqustun 17-də Menderes mahalının Şaşal rayonundakı meşəlik ərazidə başlayan yanğının elektrik naqilinin qırılması nəticəsində yaranan qığılcım və qısaqapanmadan qaynaqlandığını bildirib. Bayındır rayonunda, Ödəmişdə baş verən yanğının səbəbinin təmir işləri ilə əlaqələndirirlər, Tiredə isə öz həyətlərində piknik edərkən diqqətsizlikdən yanğına səbəb olanlar barədə məlumatlar var. Ölkə üzrə yanğınlarla bağlı yeddi nəfər saxlanılıb, onlardan ikisi həbs edilib. Məhkəməyə həbs olunanlar var, hələ də prokurorluqda olan və məhkəməni gözləyənlər var.

Meşələr dünyanın ağciyərləridir, çünki canlıların yaşaması üçün lazım olan oksigenin böyük hissəsini təmin edir. Meşələr bitki və heyvanlar üçün təbii su mənbəyidir. Həmçinin meşələr bitki örtüyündə və torpaqda böyük miqdarda karbon saxlayır ki, bu proses də iqlimə müsbət təsir edərək qlobal istiləşmənin qarşısını alır. Su buxarını kondensasiya edərək yağışın yağmasına səbəb olur. Meşələr vəhşi təbiəti qoruyur və heyvanların sağ qalmasını təmin edir. Bundan əlavə, meşələr daşqınların, sürüşmələrin, uçqun təhlükələrinin, həmçinin səhralaşmanın və havanın çirklənməsinin qarşısını alır.

Ümumiyyətlə, tək Türkiyədə deyil, son illər dünyanın müxtəlif ərazilərindəki meşələrdə böyük yanğınlar baş verir. Bu yanğınlar səmanın hislə örtülməsinə və Günəşin önünün bağlanmasına səbəb olur. Yanğınlar zamanı milyonlarla canlı məhv olur, dünyanın canlı orqanizm balansı pozulur. Yanğınlar həmçinin kənd təsərrüfatı ərazilərində məhsuldarlığa təsir edir, bunun da nəticəsində dünya miqyasında qıtlıq baş verə bilər.

Meşədə təhlükəsizlik tədbirləri görülmədən yandırılan və söndürülməmiş ocaq, meşəyə atılan kibrit və ya söndürülməmiş siqaret kötüyü, günəş şüasının qızdıraraq otları yandıracaq qədər istitdiyi şüşələr böyük yanğınlara səbəb ola bilər. Bir meşənin yanması orada yaşayan minlərlə canlının tələf olması, atmosferin cirklənməsi, dolayısı ilə insanlara təhlükədir.

Türkiyədə bir neçə il öncə də böyük yanğın baş vermişdi. Antalyanın Manavqat bölgəsində 2021-ci ildə başlayan meşə yanğınları Türkiyənin bir çox şəhərlərinə yayıldı. Əksəriyyəti Aralıq dənizi, Egey, Mərmərə, Qara dəniz və Anadolu bölgələrində- ümumilikdə 53 vilayətdə baş verən 299 meşə yanğınında 8 nəfər həyatını itirdi, 150 min hektardan çox meşə sahəsi yandı, minlərlə heyvan tələf oldu.

Bu ilin əvvəllərində Amerika yanğınları da ekologiyaya ciddi zərər verdi və hələ də verməkdədir. ABŞ Los-Anceles şəhəri tarixində ən böyük meşə yanğınları ilə mübarizə aparır. Ən azı 24 nəfər həyatını itirib, 12 mindən çox ev və iş yeri külə dönüb. 153 min insan təxliyə edilib, 166 min insan təxliyə əmrlərinə hazır olmaq barədə xəbərdarlıq edilib. Yanğınların maliyyə yükü 150 milyard dollar civarındadır. Yanvarın 7-də axşam saatlarında Los-Ancelesin müxtəlif yerlərində başlayan və güclü külək səbəbindən sürətlə yayılan yanğınlar indiyədək 37 min hektardan çox ərazini yandırıb. Fəlakətin ekozərərləri barədə hələ dəqiq hesablamalar aparılmasa da, yanğınların təbiətə böyük ölçüdə zərər verməsi istisna edilmir.

Bu ilin iyun ayının sonlarında Türkiyənin İzmir vilayətində də çox sayda yanğın başladı. Nəticədə 50 000-dən çox insan evakuasiya olunub. 4 iyul tarixində Hatay — Dörtyol bölgəsində yeni bir orman yanğını başlayıb, güclü külək səbəbindən alov tezliklə yayılıb, təxminən 2 000 nəfər evakuasiya edilib, 1 000-dən çox fövqəladə hallar əməkdaşı söndürmə əməliyyatında iştirak edib. Ümumiyyətlə, 2025-ci ilin əvvəlindən etibarən Türkiyədə ümumilikdə 3 015 yanğın qeydə alınıb. Bunların 1 295-i meşəlik, 1 720-si isə qeyri-meşə sahələrdə olub. Ümumilikdə ən azı 17 nəfər yanğınlar nəticəsində həlak olub, bu şəxslərin arasında könüllü yanğınsöndürənlər və meşə işçiləri də var.

***Lalə Mehralı***

SON SƏHİFƏ

SƏS

2 avqust
2025-ci il


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Uşaqlar arasında yeni virus yayılıb?



*“Son günlər uşaqlar arasında müşahidə olunan səpkilər, qızdırma və halsızlıq halları narahatlığa səbəb olub. Müxtəlif klinikalara və poliklinikalara müraciət edən valideynlərin ən çox verdiyi sual budur: “Uşağımda nə virusudur bu?” Bu virusun əlamətləri parvovirus infeksiyasını (digər adı ilə “beşinci xəstəlik”) xatırladır. Bu infeksiya xüsusilə məktəbəqədər və məktəb yaşlı uşaqlar arasında tez yayılır və valideynlər tərəfindən allergiya ilə qarışdırıla bilər”. Bu sözləri SİA-ya açıqlamasında həkim pediatr Səbinə Məmmədova deyib.*

Səbinə Məmmədova sözlərinə belə davam edib: “Əlamətlərə yanaqlarda qızartı (çəhrayı yanaq sindromu), bədən və qarın nahiyəsində səpkilər, az və ya orta dərəcəli hərarət, iştahsızlıq və yüngül halsızlıq daxildir. Bəzi uşaqlarda səpkilər əvvəlcə üzdə başlayır, sonra bədənə yayılır və bu, valideynlər tərəfindən dərman və ya qida allergiyası ilə səhv salına bilər.

Parvovirus hava-damcı yolu ilə asanlıqla yayılır. Uşaq bağçaları, məktəblər və ictimai

## Həkim detalları açıqladı

yerlərdə yoluxma riski daha yüksəkdir. Xəstəliyin inkubasiya dövrü 4–14 gün arasında dəyişə bilər. Bu dövrdə uşaq sağlam görünsə də, virusu başqalarına yoluxdura bilər. Parvovirus infeksiyası adətən yüngül keçir və spesifik müalicəsi yoxdur. Simptomatik yanaşma tətbiq olunur: qızdırma olduqda qızdırmasalıcı preparatlar, bol maye qəbulu, yataq rejimi və istirahət kifayətdir. Həkim təyinatı olmadan antibiotik istifadəsi qətiyyən məsləhət görülmür.

Uşağın temperaturu 3 gündən çox davam edərsə, səpgilər çoxalarsa, qusma və nəfəsalma problemi yaranarsa, həkimə müraciət olunmalıdır. Valideynlər uşaqların şəxsi gigiyenasına diqqət etməli, bağça və məktəblərdə dezinfeksiya tədbirləri gücləndirilməli, uşaqların immunitetini dəstəkləyən sağlam qidalanma və kifayət qədər yuxu təmin olunmalıdır. Bu infeksiya parvovirus ola bilər. Valideynlər səpgili, qızdırmalı hallara qarşı diqqətli olmalı, antibiotiklərə yox, düzgün müşahidə və həkim nəzarətinə üstünlük verməlidirlər”.

*Ayşən Vəli*

# Osimhen Türkiyə futbolunun ən bahalı transferi oldu



“Qalatasaray” “Napoli”dən transfer etdiyi Viktor Osimhenlə müqavilə imzalayıb. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. Nigeriyalı hücumçu ilə 4 illik sözləşmə imzalanıb. ”Qalatasaray” Osimhen üçün 75 milyon avro ödəyib və bu, Türkiyədə yeni rekord olub. Bundan əvvəlki rekord isə ötən ay reallaşmışdı. Belə ki, ”Beşiktaş”ın Türkiyə millisinin üzvü Orkun Kökçünü ”Benfika”dan 30 milyon avroya transferi rekord qırmışdı. Qeyd edək ki, ötən mövsümü “Qalatasaray”da icarədə keçirən 26 yaşlı Osimhen 41 oyunda 37 qol vurub, 8 qol ötürməsi edib.

# “Bakcell”in dəstəyi ilə “YAŞAT” yay məktəbi Londonda




*İnnovasiya və sürət lideri “Bakcell”in dəstəyi və “YAŞAT” Fondunun təşkilatçılığı ilə Londonda üçüncü “YAŞAT” yay məktəbi başlayıb. Yay məktəbindəölkə üzrə 9-cu sinif buraxılış imtahanlarında yüksək nəticə göstərmiş 10 şəhid övladı iştirak edir.*

Proqramın əsas məqsədi şəhid övladlarının dünyagörüşünü genişləndirmək, dil biliklərini artırmaq, fərdi bacarıqlarını inkişaf etdirmək və beynəlxalq mühitdə aktiv iştiraklarına imkan yaratmaq, eləcə də asudə vaxtlarının səmərəli təşkilinə dəstək göstərməkdir. İyulun 20-dən avqustun 3-dəkdavam edəcək “YAŞAT” yay məktəbi London Universitet Kollecində təşkil olunub. Proqram müddətində iştirakçılar hər gün 3 saatlıq intensiv ingilis dili dərslərində iştirak edir, şəhər ekskursiyaları, tarixi abidələrə və muzeylərə maraqlı səfərlərlə zəngin bir təcrübə yaşayırlar.

“Bakcell” bu təşəbbüslə cəmiyyətin davamlı inkişafına töhfə verən korporativ sosial məsuliyyət (KSM) və dayanıqlılıq strategiyasını uğurla davam etdirir. Gənclərin dəyişən dünyada innovativ düşüncə tərzinin formalaşmasına və fərdi inkişafına yönəlmiş sosial layihələrə dəstək şirkətin əsas prioritetlərindəndir. ”NEQSOL Holding”in tərkibinə daxil olan “Bakcell” “YAŞAT” Fondu ilə birgə şəhidlərin ailə üzvlərinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə sosial dəstək layihələrini davamlı olaraq həyata keçirir. Bu əməkdaşlıq ”NEQSOL Holding” və “YAŞAT” Fondu arasında imzalanan Anlaşma Memorandumu çərçivəsində həyata keçirilir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000